EVDƏ QAL, SAĞLAM QAL!

"Azərbaycan Özbəkistanla beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlıq edir"



Bax 2

"The Jerusalem Post": Azərbaycan nümunəvi tolerantlıq və açıq cəmiyyət nümunəsidir



Bax 7



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 141 (6105) 19 avqust 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Koronavirusla mübarizədə dünyaya örnək olan Azərbaycan modeli

**Prezidentin islahatlarının nəticəsi, çevik hökumət və...**

Bax 3




## Bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüş keçirilib



*Azərbaycan Milli İncəsənət Muzeyində bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi, ziyalılar ilə görüş keçirilib.*

*AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Mədəniyyət nazirinin birinci müavini Anar Kərimov...*

Bax 4

## "Azərbaycan və Türkiyə arasındakı hərbi təlimlər işğalçı Ermənistana xəbərdarlıq siqnalı idi"



- Bildiyimiz kimi, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə daha öncələr də genişmiqyaslı döyüş atışlı taktiki...

Bax 5

## ÜST-dən koronavirusla bağlı yeni ÇAĞIRIŞ: Karantin tətbiq etməyin

*Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyaya müraciət edərək, yeni koronavirus infeksiyasına görə daha karantin tətbiq etməməyə çağırıb, baxmayaraq ki, əvvəl bunun əksini tələb edirdi.* SİA-nın məlumatına görə, uzun müddət idi ÜST dünyanın demək olar ki, bütün ölkələrinə, pandemiyanın inkişafını yüngülləşdirən sərt karantin rejiminə bağlanmağı...



Bax 8

## Paşinyanın həbs fotoları yayıldı!

Erməni fotojurnalist Qaqik Şamşyan öz "Facebook" səhifəsində 2010-cu il noyabrın 19-da Ermənistanın Araqatsotn vilayətinin ümumi yurisdiksiya məhkəməsində "Haykakan jamanak" qəzetinin baş redaktoru, siyasi məhbus Nikol Paşinyanın məbuat konfransından arxiv fotolarını paylaşıb. SİA "ordu.az"a istinadla xəbər verir ki, "Haykakan jamanak" qəzetinin redaktoruna...



Bax 8

## Samuel Eto'o: "Barselona" demək, Messi deməkdir

*"Barselona"nın sabiq oyunçusu Samuel Eto'o Lionel Messinin Kataloniya klubundan ayrılacağı ilə bağlı yayılan iddialara münasibət bildirib. Qol.az "TyC Sport"a istinadən xəbər verir ki, o, argentinalı hücumçunun komandada qalmalı olduğunu deyib: "Messini öz övladım kimi sevirəm və onun üçün ən yaxşısını arzulayıram...*



Bax 16

Əlişkanın belarus çastuşkaları



Bax 12

Tanınmış siyasi ekspertin məqaləsi Türkiyə mətbuatında dərc olunub




Bax 4

Azərbaycan ən çox bu ölkələrə qaz ixrac edir



Bax 9

# "Azərbaycan Özbəkistanla beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlıq edir"

*Prezident İlham Əliyev Özbəkistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Özbəkistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanovun etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Prezident İlham Əliyev ölkələrimiz arasındakı ikitərəfli əlaqələrin və əməkdaşlığın səviyyəsindən məmnunluğunu ifadə etdi. Ölkələrimiz arasında fəal siyasi dialoqun aparıldığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Özbəkistanla beynəlxalq təşkilatlar, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində yaxından əməkdaşlıq etdiyini bildirdi. Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sammitində iştirakının əməkdaşlığımızın inkişafına mühüm töhfə verdiyini qeyd etdi. Prezident İlham Əliyev bu səfər çərçivəsində Özbəkistan dövlətinin başçısı ilə iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, kənd təsərrüfatı, o cümlədən pambıqçılıq və digər sahələrdə də əməkdaşlığa dair səmərəli müzakirələrin aparıldığını vurğuladı.

Koronavirus pandemiyası ilə əlaqədar Özbəkistana nəzərdə tutulmuş səfərinin təxirə salındığını qeyd edən Prezident İlham Əliyev epidemioloji vəziyyət imkan verən kimi qardaş Özbəkistana səfər edəcəyini bildirdi.

Prezident İlham Əliyev bu il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü ilə əlaqədar İslam Əməkdaşlıq Təşkilatı və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində müvafiq bəyanatların qəbul edilməsinə üzv dövlət olaraq Özbəkistanın verdiyi dəstəyə görə təşəkkürünü bildirdi.

Dövlətimizin başçısı digər sahələrlə bərabər, nəqliyyat-logistika sahəsində ölkələrimiz arasında əməkdaşlıqda yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi.

Ölkələrimiz arasında əməkdaşlığın xalqlarımızın qardaşlıq əlaqələrinə əsaslandığını qeyd edən Prezident İlham Əliyev Özbəkistanla münasibətlərin bütün sahələrdə inkişafı üçün yaxşı perspektivlərin olduğunu vurğuladı.

Səfir Bahrom Aşrafxanov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin ən səmimi salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. Keçən ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş sammitində Özbəkistan Prezidentinin iştirakının və bu çərçivədə dövlət başçıları səviyyəsində görüşlərin ikitərəfli əlaqələrimizin inkişafına mühüm təkan verdiyini qeyd etdi.

Səfir, eyni zamanda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın bütün sahələrdə böyük uğur qazandığını və digər ölkələr üçün örnək olduğunu vurğulayaraq, Özbəkistanın Azərbaycanın qabaqcıl təcrübəsindən bəhrələndiyini, "ASAN xidmət" nümunəsində ölkəsində Dövlət Xidmətləri üzrə Agentliyin yaradıldığını bildirdi.

Ölkələrimiz arasında yaxşı münasibətlərin olduğunu qeyd edən səfir Özbəkistanın Azərbaycanla ticari-iqtisadi əlaqələrin inkişafına böyük önəm verdiyini və Azərbaycanın bu sahədə MDB məkanında Özbəkistan üçün strateji tərəfdaş olduğunu dedi. Eyni zamanda, səfir kənd təsərrüfatı, xüsusilə də fındıqçılıq və narçılıq sahələrində Azərbaycanın təcrübəsinin Özbəkistan üçün maraqlı olduğunu bildirdi.

Səfir koronavirus pandemiyası ilə bağlı karantin tədbirlərinin yaxın vaxtlarda sona çatacağına və Azərbaycan Respublikası Prezidentinin Özbəkistana səfər edəcəyinə ümidvar olduğunu ifadə etdi. Bu səfərin əməkdaşlığımızın genişlənməsi və dərinləşməsinə yeni bir təkan verəcəyinə əminliyini bildirdi. Səfir Özbəkistanın Azərbaycanla nəqliyyat-logistika sahəsində əməkdaşlığa, Xəzər dənizi vasitəsilə Azərbaycanı və Mərkəzi Asiya ölkələrini birləşdirən nəqliyyat dəhlizinə və Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdırdı.

Bahrom Aşrafxanov Özbəkistanın Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini daim dəstəklədiyini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünə göstərdiyi birmənalı dəstəyinə görə Özbəkistana təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Özbəkistanın Prezidentinə çatdırmağı xahiş etdi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev "Hökumət buludu"nun (G-cloud) yaradılması və "bulud" xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, "Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış"ın məzmunu"nun təsdiq edilməsi və "Hüquqların dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən Çıxarış"ın və "Torpaq sahəsinin planı və ölçüsü"nün təsvirlərinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 17 iyun tarixli 553 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Koronavirusla mübarizədə dünyaya örnək olan Azərbaycan modeli

## Prezidentin islahatlarının nəticəsi, çevik hökumət və...

***Bu gün dünyanın əsas bəlası, eyni zamanda mövzusu olan koronavirus pandemiyası həm də yeni təcrübələr yaratdı. Müharibələr, çətin vəziyyətlər adamları da, dövlətləri də tanımağa imkan verir. Belə vəziyyətlərdə ilk şərtlərdən biri panikaya məğlub olmamaq, bəlanın miqyasını real qiymətləndirmək, çevik idarəetmə ilə operativ və düzgün qərarlar qəbul etməkdir. Soyuqqanlı və təcrübəli olmaq həmişə işə yarayır.***




Bəli, Birinci Qarabağ savaşından sonra Azərbaycan bu miqyasda ağırlıq, sınaq görməmişdi. Əlbəttə, atəşkəsdən - 1994-cü ildən bu yana da ölkəmizdə xeyli siyasi-iqtisadi xarakterli təlatümlər, çətinliklər, böhranlar olub, yaşanıb. Ancaq indi bütövlükdə dünyanı çalxalayan gözəgörünməz koronavirus pandemiyası demək olar ki, sərhəd tanımır. Yer üzündə sanki həyat dayanıb. Dünyanın əksər ölkələri, hətta inkişaf etmiş ABŞ, İtaliya, Almaniya, Türkiyə, Rusiya və sair kimi qüdrətli dövlətlər çıxılmaz durumda qalıb. Bəzi dövlətlərdə nəinki iqtisadi-sosial, tibbi sferada, bütövlükdə hökumətin fəaliyyətində böhran yaranıb. Bir çox ölkələr faktiki olaraq idarəolunmaz duruma doğru gedir... Elə dövlət başçısının çevik və düşünülmüş addımlarının nəticəsidir ki, bu gün Azərbaycan bu bəladan da böyük nəticələrlə çıxmaqdadır. Yaranmış mövcud durumda Azərbaycan dövləti bütün çətinliklərin öhdəsindən gələ bilir, müvafiq, adekvat addımlar atılır. Ən mühüm olan budur və biz faktiki olaraq ölkə prezidenti İlham Əliyevin həyata keçirdiyi böyük islahatların faydalı nəticələrini görürük.

### Rob Sobhani: "Azərbaycan bir çox ölkələr üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir"

"Azərbaycan dünyada bir çox ölkə üçün koronavirusla mübarizənin ən effektiv yollarını axtaran uğurlu modeldir". Bunu "Caspian Group Holdings"in baş direktoru, amerikalı ekspert Rob Sobhani deyib. O bildirib ki, bu çox təhlükəli pandemiyanın qarşısını almaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinin həyata keçirdiyi tədbirlər aktualdır və təqdirəlayiqdir. Amerikalı ekspert, sosial təcrid tədbirlərini, təhlükəsizlik üçün ictimai yerlərin bağlanmasını və insanları evdə qalmağa çağıran peşəkar şəkildə lentə alınan videoları xüsusi qeyd edib.

"Bu tədbirlər sayəsində Azərbaycanda koronavirusdan ölənlərin sayı ümumi əhalinin çox az bir faizini təşkil edir", - deyə amerikalı ekspert vurğulayıb. R.Sobhani, həmçinin Azərbaycanda karantində olan əhaliyə maddi yardım göstərilməsini yüksək qiymətləndirib: "Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müdrik qərarı sayəsində vaxtı ilə ölkədə Dövlət Neft Fondu yaradılıb və Prezident İlham Əliyev bu fondun səmərəli işini təmin edib. Buna görə, bu gün xüsusi karantin rejimi zamanı aztəminatlı ailələrə maddi yardım göstərmək üçün kifayət qədər vəsait var".

Bundan əlavə, amerikalı ekspert qeyd edib ki, koronavirusdan sonrakı dövrdə bütün dünyada, o cümlədən Azərbaycanda da iqtisadi fəaliyyətin mərhələli şəkildə bərpasını təmin etmək lazımdır: "Əminəm ki, Azərbaycan rəhbərliyi karantin rejimindən tədricən çıxmaq və iqtisadi fəaliyyətin tam bərpası üçün effektiv bir plan hazırlayacaq".

### Dövlət başçısı koronavirusla mübarizədə dünyaya örnək olan mövqe nümayiş etdirir

Bəli, bəşəriyyətin sınağa çəkildiyi belə bir məqamda xəbər hər şeydən qiymətli olur. Hər bir kəs məlumatları izləyir və hansı dövlətin daha düzgün qərar verdiyini, daha səlis addım atdığını özlüyündə aydınlaşdırmağa cəhd edir. Bu baxımdan Prezident İlham Əliyevin qətiyyətli və operativ olması, kreativ lider kimi ən mürəkkəb hadisələri yüksək peşəkarlıqla idarə etməsi, qarşısına çıxan maneələri sürətlə keçməsi, düzgün qərarlar verməsi və bütün ölkənin aqibəti ilə yanaşı, hər bir vətəndaşın da qayğılarını eyni həssaslıqla düşünməsi onun nüfuzunu dünya miqyasında artırır. Dövlət başçısının mübarizliyi və müdrik lider keyfiyyətləri yüz minlərlə insanın rəğbətinə səbəb olur.

Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfransda verdiyi bütün tapşırıqların yerinə yetirilməsinin vacibliyini qeyd edərək, pandemiyanın davam etməsi ilə bağlı əlavə tapşırıqların veriləcəyini də bildirmişdir: "Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır".

Dövlət başçısının uzaqgörən və çevik siyasəti nəticəsində yoluxma zənciri qırılmış, müsbət dinamika əldə edilmişdir. Operativ qərarlar, sosial məsələlərin həllinin önə çəkilməsi Azərbaycanda milli həmrəyliyi misli görünməmiş ucalıqlara qaldırmış, xalq-iqtidar birliyinin möhtəşəm gücə çevrildiyini sübut etmişdir.

Təsadüfü deyil ki, İlham Əliyev videobağlantıda ən vacib məsələnin insanların sağlamlığı ilə bağlı olduğunu bildirmiş, səhiyyə sistemimizin böyük sınaqdan keçdiyini qeyd etmişdir. Təsadüfi deyil ki, dövlət başçısı Azərbaycanda xəstəliyin yayılma sürətinin nəzarət altında saxlanıldığını qeyd edərək digər ölkələrdə səhiyyənin vəziyyəti ilə əlaqədar olaraq vurğulamışdır: "Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanıblar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı".

Prezident İlham Əliyev 200 min əvəzinə, 600 min insana iki ay ərzində 190 manat məbləğində vəsait verilməsini də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qarşısında bir tələb kimi qoymuş, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olanların problemlərini dövlətin öz üzərinə götürdüyünü bəyan etmişdir. Azərbaycan Prezidenti verdiyi tapşırıqların operativ, şəffaf şəkildə yerinə yetirilməsini tələb etmiş, insanların sağlamlığı və həyatı üçün bundan sonra da müvafiq tədbirlərin davam etdiriləcəyini bildirmişdir: "İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Əminəm ki, biz bunu təmin edəcəyik".

### İşğalçı Ermənistan isə kritik vəziyyətdən çıxmaq üçün təxribata əl atmağa məcbur idi

Bir müddət əvvəl həm ölkə mediasında, həm də ərəb mətbuatında dərc olunmuş "Pandemiyadan sonrakı Qarabağ: sülh, müharibə yoxsa inqilab?" sərlövhəli məqalədə böhranla əlaqədar olaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibəyə əl atacağı ilə bağlı verdiyim proqnozlar özünü doğrultdu. İşğalçı Ermənistan kritik vəziyyətdən çıxmaq, ondan narazı olan əhalinin fikrini yayındırmaq üçün təxribata əl atdı. Ermənistan tərəfinin koronavirus pandemiyasının yaratdığı çıxılmaz iqtisadi böhran vəziyyətində "kiçik müharibə"yə başlamaqla narazı kütlənin diqqətini ağır iqtisadi-sosial problemlərdən yayındırmağa çalışdı və 12 iyulda Tovuz ətrafı təxribatla özünü "sığortalamaq" istədi. Ancaq Nikol Paşinyan çox gözəl dərk edirdi ki, iri miqyaslı hərbi əməliyyatlar başlayacağı təqdirdə ölkəsinin güclü Azərbaycan ordusu qarşısında biabırçı məğlubiyyəti və deməli, özünün də hakimiyyətdən salınması sırf zaman məsələsidir. Bu vəziyyətə Ermənistanın məqsədi "kiçik müharibə" effekti yaradıb, daxili auditoriyanın hakimiyyətə olan qəzəbini soyutmaq və sonra isə beynəlxalq aləmdə hay-həşir qoparıb, Azərbaycan ordusunun hücuma keçdiyi, Ermənistan dövləti və onun "məzlum" xalqı üçün yenidən təhdidlərin yarandığı ilə bağlı dezinformasiya yaymaq istədi. Ancaq güclü Azərbaycan ordusu və rəşadəli əsgərlərimizin şücaəti nəticəsində Paşinyana yerini göstərdi. Aprel döyüşlərində oduğu kimi, bu dəfə də biabırçı uğursuzluğa düçar oldu.

Əsas olan odur ki, hər belə təxribat Ermənistanın işğalçılıq siyasətinin ifşasını sürətləndirir, Azərbaycanın öz torpaqlarını azad etmək üçün siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirir. Tarixi başdan-başa saxtakarlıqlardan, xalqımıza qarşı soyqırımlardan, quldurluqdan ibarət olan cinayətkarlar, oğrular, saxta demokrat cildinə girmiş diktatorlar ölkəsi hər addımı ilə öz sonunu yaxınlaşdırır.

Bu günlərdə mətbuata açıqlamasında Prezident İlham Əliyev sülh danışıqlarının gedişatı ilə bağlı fikirlərini bildirirərək, dövlətimizin mövqeyini bəyan etdi. Görünən odur ki, Azərbaycan danışıqları imitasiya üçün aparmaq niyyətində deyil. Dövlətimizin başçısı müsahibəsinin sonunda "Heç kimin Aprel döyüşləri yadından çıxmasın!" fikrini də təsadüfən söyləmədi. Bəli, Azərbaycan nəyə qadir olduğunu artıq sübut edib. Ermənistanın siyasi-hərbi rəhbərliyi də ölkəsinin zəifliyini bilir və buna görə də indiki təxribatı məqsədyönlü şəkildə dövlət sərhədində törədib. Amma beynəlxalq situasiya elə bir mərhələyə doğru gedir ki, üzvü olduğu təşkilatlar belə Ermənistanı xilas edə bilməyəcək və işğalçı siyasətin son nöqtələrini Ordumuzun atəşləri qoyacaq".

**RƏFİQƏ HÜSEYNOVA**







# Bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi ilə görüş keçirilib

***Azərbaycan Milli İncəsənət Muzeyində bir qrup tanınmış mədəniyyət və incəsənət xadimi, ziyalılar ilə görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Mədəniyyət nazirinin birinci müavini Anar Kərimov iştirak ediblər.***

Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov son illər ölkəmizdə müxtəlif sahələrin, o cümlədən mədəniyyətin inkişafı, vətəndaşların problemlərinin həlli istiqamətində ciddi islahatların həyata keçirildiyini və bununla bağlı reallaşdırılan layihələrə dəstəyin gücləndirildiyini deyib. Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə olduğu kimi, mədəniyyət sahəsinə də təsirsiz ötüşmədiyini bildirib. Qeyd edib ki, koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə kütləvi tədbirlər keçirilmir. Buna baxmayaraq, Prezident İlham Əliyevin tapşırığına əsasən çoxsaylı mədəni layihələrin icrası davam edir. Anar Ələkbərov bu görüşün əsas məqsədinin mədəniyyət xadimləri ilə fikir mübadiləsi aparmaq, onların təkliflərini dinləyib ölkə rəhbərliyinə çatdırmaq olduğunu bildirib.

Prezidentin köməkçisi dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək olaraq Heydər Əliyev Fondunun fəaliyyətini də qeyd edib. O, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycan mədəniyyətinin inkişafı və dünyada təbliği, mədəniyyət obyektlərinin yenidən qurulması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində reallaşdırdığı layihələrdən danışıb. Anar Ələkbərov bildirib ki, bundan sonra görüləcək işlər də artıq müəyyənləşdirilib. Bunlarla bağlı mədəniyyət və incəsənət xadimlərinin fikir və təkliflərinin öyrənilməsi və birgə addımların atılması səmərəli olacaq.

Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Mədəniyyət nazirinin birinci müavini Anar Kərimov yeni yaradılan İctimai Şuranın ictimaiyyət nümayəndələri ilə münasibətlərin genişləndirilməsində faydalı olacağını bildirib.

Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov belə görüşlərin yaradıcı təşkilatların fəaliyyəti üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə təmsil etdiyi qurumun Rusiyada keçiriləcək "Tarixi irsin saxlanılması və istifadəsi" festivalında Azərbaycanın işğal olunmuş ərazilərində memarlıq abidələrimizin vəziyyətinə dair sərgi ilə iştirak edəcəyini deyib. Anar Kərimov isə diqqətə çatdırıb ki, tarixi memarlıq abidələrimizin reyestri sonuncu dəfə 2001-ci ildə aparılıb. Ötən 19 ildə həyata keçirilən arxeoloji qazıntılar nəticəsində yeni abidələr tapılıb. Ona görə də yeni siyahının müəyyənləşdirilməsi istiqamətində artıq işlərə başlanılıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev və digər çıxış edənlər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatları yüksək qiymətləndiriblər. Son vaxtlar cəbhə bölgəsində ordumuzun düşmən təxribatlarının qarşısını almaq üçün göstərdiyi hünər və rəşadət xüsusi qeyd olunub.

Mədəniyyət və incəsənət xadimləri mədəni irsin qorunması, təbliği və təşviqinin genişləndirilməsi ilə bağlı təkliflər səsləndiriblər. Ölkəmizdə müxtəlif istiqamətlərdə, o cümlədən mədəniyyət sahəsində görüləcək işlərə dair müzakirələr aparılıb.

Tədbir iştirakçıları belə görüşlərin əhəmiyyətini vurğulayıb, müzakirələr üçün seçilən bu formatın qarşıda duran məsələlərin səmərəli həlli üçün zəruri olduğunu qeyd ediblər.

# Elçin Quliyev: "Xalqımızın mübariz ruhu torpaqlarımızın tezliklə azad olunmasına gətirib çıxaracaq"



Qazax-Ağstafa rayonları ərazisində Azərbaycan - Ermənistan dövlət sərhədi Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürüldükdən sonra qısa müddət ərzində bilavasitə düşmənlə təmas xəttində sərhədçilərimiz üçün 89 ədəd ən müasir tələblərə cavab verən sərhəd məntəqəsi, 4 hərbi hissə kompleksi tikilərək istifadəyə verilmişdir, bir hərbi hissə kompleksi və 3 sərhəd məntəqəsində isə tamamlama işləri aparılır. SİA-nın məlumatına görə, bunu Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev deyib. Onun sözlərinə görə, xidməti ərazilərdə düşmən tərəfindən törədiləcək istənilən təxribatın qarşısını almağa imkan verən əlverişli xidmət şəraitinin yaradılması, təhlükəsiz xidmətin təşkili, bütün cəbhəboyu ərazidə üstünlük əldə edilməsi məqsədilə kompleks tədbirlər həyata keçirilmiş, sərhəd-döyüş məntəqələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, sərhədçilərimizin ən müasir silahlarla, aşkaretmə cihazları və digər texniki vasitələrlə təmin edilməsi, mühəndis təchizatının təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir: "Bu tədbirlər sırasında bütün xidməti ərazi boyu döyüş postlarına aparan və onlar arasında yolların, həmçinin təhlükəsizliyin təmin edilməsi üçün yol boyu qoruyucu sədlərin çəkilməsi, bütün sərhəd döyüş məntəqələrinin xüsusi radiorabitə vasitələri ilə təmin edilməsi, xətti rabitə sisteminin yenilənməsi, sərhəd döyüş məntəqələrində yüzlərlə videomüşahidə kameralarının və günəş paneli sistemlərinin quraşdırılması xüsusi qeyd edilməlidir. Ermənistan silahlı bölmələrinin sərhədboyu ərazidə təxribatlarının, həmin bölmələrin dəfələrlə öz döyüş mövqelərini dövlət sərhədinə doğru irəli çəkmə cəhdlərinin qarşısı qətiyyətlə alınmışdır.

Cavab tədbirləri nəticəsində dövlət sərhəd xəttinə 2000 metrə qədər məsafədə olan bir çox mövqelərimizin 1500-1700 metr irəli çıxarılması yaxınlıqdakı yaşayış məntəqələrimizin və magistral yolların, həmçinin şəxsi heyətin təhlükəsizliyini artırmağa, strateji cəhətdən əlverişli istiqamətlərdə yeni sərhəd döyüş məntəqələrinin yaradılmasına imkan vermişdir. Eyni zamanda düşmənin yaşayış məntəqələrinə, magistral yollarına və strateji əhəmiyyətli obyektlərinə nəzarət imkanları artırılmışdır".

Xidmət rəisi deyib ki, mühəndis işləri görən silahsız sərhədçilərimizə və mülki şəxslərə qarşı silah tətbiq etməkdən çəkinməyən namərd düşmənin bütün təxribatlarına sərhədçilərimiz tərəfindən layiqli cavab verilib, atəş nöqtələri susdurulub, hərbçiləri məhv edilib, düşmənin 5-6 qat artıq təlafat verməsinə nail olunub: "Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimadının göstəricisi olaraq Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisində keçən hissəsinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsi dövlət sərhədlərinin bütövlüyünün təmin edilməsinin başlanğıcı olmaqla yanaşı, Lələtəpədən başlamış zəfər yürüşünün davamıdır.

Cari ilin iyul ayının 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısı Silahlı Qüvvələrimiz tərəfindən qətiyyətlə alındı, əsgər və zabitlərimizin qəhrəmanlığı mənfur düşməni itki verərək geri çəkilməyə məcbur etdi. 14 iyulda Bakıda Silahlı Qüvvələrə və Ali Baş Komandana çoxminlik dəstək yürüşü Azərbaycan xalqının sarsılmaz iradəsini, xalqın öz Prezidentinə və Silahlı Qüvvələrinə inamını və sədaqətini, onların yanında olduğunu bir daha ən yüksək səviyyədə nümayiş etdirdi. Ali Baş Komandanımızın göstərdiyi qətiyyətli mövqe, gündən-günə güclənən Silahlı Qüvvələrimiz və xalqımızın mübariz ruhu Azərbaycan torpaqlarının tezliklə azad olunmasına gətirib çıxaracaqdır".

# Tanınmış siyasi ekspertin məqaləsi Türkiyə mətbuatında dərc olunub







Türkiyədə çoxminli oxucusu olan "Yeşiliğdır" və "15 Temmuz" internet qəzetlərində Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri, tanınmış siyasi ekspert Rasim Quliyevin "Tovuz`dan başlayan provokasyon bugün de mi devam ediyor?" adlı məqaləsi dərc olunub. SİA-nın verdiyi məlumata görə, məqalədə Cənubi Qafqazda, xüsusilə də Azərbaycan ərazilərində yüz illər bundan əvvəl və bu gün baş verən hadisələr, Azərbaycan torpaqlarında qurulan Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etməsi, Tovuz rayonunda baş verən hadisələr və onun səbəbləri geniş təhlil olunur. Aşağıdakı linklərdə həmin məqalə ilə tanış ola bilərsiniz: https://yesiligdir.com/haber/detay/26968

# Armenianreport yazır: Ermənistanda iqtisadi inqilab necə oldu?

***Sərmayələr keçmiş sistemdən və ya Ermənistanda idarə olunan sistemlə əlaqəsi olan qüvvələrdən tələb olunmur. SİAxəbər verir ki, bu barədə armenianreport.com saytı yazır.***



Saytın yazdığına görə, məxməri inqilabdan sonra Nikol Paşinyanın Ermənistandakı siyasi inqilabı iqtisadi sahədə dəyişiklik etməyi düşünmədi.

Ermənistana məxsus mətbuat səhifəsi qeyd edir ki, Nikol Paşinyanın elan etdiyi iqtisadi inqilab dayanıb. Qeyd olunur ki, səbəb, həm obyektiv, həm də subyektiv, problemin mahiyyətini dəyişdirmir. Həmçinin nəzərə çatdırılır ki, əgər Ermənistanda dərin siyasi dəyişikliyə ehtiyac olarsa, bu, yalnız siyasi status-kvonun dəyişdirilməsi və nəticədə qəbul edilmiş qanunların qəbul edilməsi ilə həyata keçirilə bilməz, çünki ümumiyyətlə, heç bir qanun ictimai əhval-ruhiyyə və siyasi mənzərənin formalaşmasında iqtisadi komponentlərin obyektiv təsirini əsaslı neytrallaşdırmır.

***İnam Hacıyev***

# “Azərbaycan və Türkiyə arasındakı hərbi təlimlər işğalçı Ermənistana xəbərdarlıq siqnalı idi”

## Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Administrasiyanın hərbi məsələlər şöbəsinin rəhbəri, general-polkovnik Məhərrəm Əliyevin SİA-ya müsahibəsi

*- Məhərrəm müəllim, Azərbaycan və Türkiyə arasında hərbi təlimlər uğurla başa çatdırıldı və bu təlimlər nəinki regionda, demək olar ki, dünya miqyasında çoxsaylı müzakirələrə səbəb oldu, eləcə də işğalçı Ermənistan tərəfi ciddi təlaş yaşadı. Ümumiyyətlə, poseslərin nəticə olaraq necə qiymətləndirərdiniz?*



- Bildiyimiz kimi, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə daha öncələr də genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib. Məhz bu ay keçirilən təlimlər də qrafikə uyğun olaraq baş tutdu. Özü də deyərdim ki, daha geniş masştabı ilə digər təlimlərdən öz yeni və çox əhəmiyyətli strategiyaları ilə fərqləndi. Bu baxımdan, dünyanın diqqət mərkəzinə düşdü və hər iki ölkənin hərbi gücünü, qüdrətini daha geniş sferada nümayiş etdirdi.

Diqqət yetirsək görərik ki, birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edildi, o cümlədən, paytaxt Bakı da daxil olmaqla Naxçıvanda, Gəncədə, Kürdəmirdə və Yevlax şəhərlərində keçirildi ki, burada çoxsaylı döyüş taktikalarının bütün mümkün vasitələrindən istifadə olundu. Əlbəttə, belə bir nəhəng hərbi təlimlərin keçirilməsi dünyanın da diqqətindən kənarda qala bilməzdi. Çünki bu gün qardaş Türkiyə deyərdim ki, anti-terror, dövlət sərhədlərinin mühafizə əməliyyatları baxımından ən öndə gedən və güclü orduya malik olan dövlətdir və biz qardaş ölkənin hərbi kontingentinin dünyanın müxtəlif ölkələrindəki uğurlu əməliyyatlarının da şahidləriyik.

O cümlədən, Azərbaycan da istər Qafqaz regionunda, istərsə də beynəlxalq aləmdə söz sahibinə çevrilib və bu faktor özünü barəsində danışdığımız hərbi təlimlərlə də isbatlayır. Nəzərə alsaq ki, Azərbaycanın ərazisinin 20 faizi təcavüzkar Ermənistanın işğalçılıq siyasəti nəticəsində hələ də işğal altındadır və nankor qonşumuz zaman-zaman silahlı insidentlər, təxribatlar törətməklə işğalçı siyasətini uzatmağa çalışır, bu zaman düşmənin nəyə görə bu qədər narahat olmasını da anlamaq çətinlik yaratmır.

Mən bu xüsusda düşmənin Tovuz istiqamətindəki təxribatçı əməllərini xatırlatmaq istərdim. Bu uğursuz taktika nəticəsində erməni ordusu ağır itkilərlə geri çəkilməyə məcbur oldu.

Lakin daha bir fakt bu oldu ki, qəhrəman zabitlərimiz rütbələrindən asılı olmayaraq əsgərləri ilə ön sıralarda döyüşdülər, onlar öz əsgərlərinin arxalarında deyil, məhz önündə gedərək, onları düşmənlə döyüşə ruhlandırdılar. Bu döyüşlərdə şəhid olmuş general-mayorumuz Polad Həşimovun peşəkar ali rütbəli zabit kimi ön sıralarda döyüşməsi və Vətənin bütövlüyü uğrunda canından keçməsi də sübut edir ki, Azərbaycanın sıravi əsgərindən tutmuş ən ali rütbəli zabitinə qədər hər kəs bu yolda gözünü qırpmadan irəliləmək, əzmlə döyüşmək qüdrətindədir. Bu cür qəhrəmanlıq şücaətləri ilə tarix yazan xalqın yalnız və yalnız qələbə qazanmaq ruhunda olması isə əlbəttə ki, labüddür, reallıqdır. Polad Həşimov kimi generalımızın timsalında göstərilən qəhrəmanlıq şücaəti hər bir əsgərimizə, hər bir zabitimizə, eləcə də bütün dünyaya göstərilən danılmaz örnək, inkaolunmaz nümunədir.

Söz yox ki, bütün bunların müqabilində, yəni düşmən təxribatından sonra baş tutan geniş miqyaslı hərbi təlimləri xaraktercə xəbərdarlıq siqnalı kimi dəyərləndirə bilərik. Belə bir məsələdə, haqq və ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq normaları da çoxsaylı qətnamələr və sənədlərlə Azərbaycan torpaqlarının işğala məruz qaldığını, Ermənistanın isə təcavüzkar dövlət olduğunu bəyan edir. Bir çox ölkələr Tovuz təxribatının ardınca Azərbaycanın mövqeyinə dəstək göstərdilər və qardaş Türkiyə dövləti bilavasitə bizim yanımızda olduğunu bəyan etdi. Ermənilər bundan narahatlıq keçirməyə bilməzdilər və xüsusilə Naxçıvandakı təlimlər düşməni ciddi şəkildə lərzəyə gətirdi. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi təlimləri işğalçı Ermənistana sonuncu xəbərdarlıqlardan biri oldu və onlar bunu da dərk edirlər ki, lokal hərbi qarşıdurma yaşanarsa, müharibə baş verərsə, ümumiyyətlə, Ermənistan dövlət olaraq xəritədən silinmək təhlükəsi ilə qarşı-qarşıya qalmalı olacaq. Bu məsələdə isə, bütün cavabdehlik, məsuliyyət birmənalı olaraq işğalçı ölkənin rəhbərliyi üzərinə düşür.

*- Cənab general-polkovnik, təlimlərdən sonra ölkələrimiz arasında ikitərəfli görüşlər baş tutdu. Bu görüşlər özündə daha hansı faktorları ehtiva edir?*

- Qeyd edim ki, hərbi təlimlərin ardınca Xarici işlər naziri və Müdafiə naziri Türkiyədə səfərdə oldular, geniş tərkibdə görüşlər keçirdilər, qardaş ölkənin dövlət başçısı cənab Rəcəb Tayyib Ərdoğanla da görüşərək, qarşıda dayanan məsələləri, müzakirə etdilər. O cümlədən, Prezident İlham Əliyev cənabları Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarı, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisini, Quru Qoşunları komandanını, Hərbi Hava Qüvvələri komandanını və Hərbi Dəniz Qüvvələri komandanını qəbul etdi. Bu görüşlərdə də vurğulandı ki, hərbi təlimlərin keçirilməsi həm də bir ənənədir və bu ənənə özünü bir ildə keçirilən 10-dan çox birgə təlimlərlə də sübut etməkdədir.

Daha bir faktor isə budur ki, digər sahələrlə yanaşı, bizim hərbi-texniki sahədə, xüsusilə hərbi sənayedə ikitərəfli əməkdaşlığımız mövcuddur. Bu elə bir əməkdaşlıqdır ki, heç bir başqa ölkələr arasında belə sıx hərbi məqsədli təmaslar mövcud deyil. Ancaq o da kimsəyə sirr deyil ki, Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı var və biz də qardaş ölkənin bu potensialından faydalanırıq. Çünki Türkiyə dünyanın ən müasir hərbi-texniki silahlarına, avadanlıqlarına malikdir və onların əksəriyyəti həmin ölkənin öz milli istehsalıdır. Etiraf edək ki, Türkiyənin belə bir hərbi gücə malik olması istər-istəməz bəzi dairələri narahat edir, eyni zamanda, işğalçı Ermənistan bu qaçılmaz amildən təlaşlanır. Cənab Prezident İlham Əliyevin keçirdiyi görüşü əsnasında Türkiyə ilə hərbi-texniki əməkdaşlığın daha da artırılacağı və bir nömrəli tərəfdaşı olacağı barədə vurğuladığı fikirləri də qənaətə gəlməyə zəmin yaradır ki, artıq ölkələrimiz regionun stabilliyini, təhlükəsizliyini təmin etmək üçün vahid güc mərkəzinə çevrilməkdədirlər.

*- Məhərrəm müəllim, Ermənistanın ali və hərbi rəhbərliyi hələ də təxribatçı mövqelərinə hər hansı qeyri-ciddi fikirləri ilə haqq qazandırmağa cəhdlər göstərməklə yanaşı, qondarma “DQR”ə rəhbərlik edən şəxs də bugünlərdə “Gəncəni vurmaq” tipli fikirləri ilə gündəmə gəldi. Sizcə, bu cür bəyanatları verərkən onlar nəyə, yaxud hansı güclərinə arxalanırlar?*

- Bilirsiniz, hər hansı əməli icra etmək nə qədər çətindirsə, danışmaq bir o qədər asandır. Hesab edirəm ki, belə bir cəfəng, gülünc fikirlərlə gündəmdə qalmaq səyləri daxili publikaya hesablanmış növbəti uğursuz cəhddir. Onlar sadəcə danışırlar və eyni zamanda, onlar həmin işğalçılardır ki, 2016-cı ildə də bənzər bəyanatlarını irəli sürürdülər, Aprel müharibəsində isə bir neçə qatlıq cavabların aldılar. Ancaq buna baxmayaraq, sonrakı zamanda aldıqları ağır məğlubiyyətlərini, çoxsaylı tələfatlarını, itirilmiş işğal altındakı əraziləri, yüksəklikləri xalqdan gizlətməkdən ötrü daha kəskin hərbi ritorika ilə hədələr yağdırmağa, yalanlar danışmağa başladılar. Amma nə oldu? Nə baş verdi? Azərbaycan Ordusu Naxçıvanda Günnüt zəfərini qazandı və hərbi istehkamlarını daha da gücləndirdi, Ermənistanın hərbi-streteji məkanlarını tam nəzarətə götürdü. Görünür, düşmən hələ də öz köhnə düşüncəsində, ampluasında qalmaqdadır və növbəti dəfə uğrayacağı fiaskodan ciddi narahatlıq, ardıcıl sarsıntı keçirir. Erməni tərəfinin arxalanacağı güclər isə artıq onlardan üz döndərməkdədirlər. Bu gün işğalçı ölkədəki daxili vəziyyətin hansı səviyyədə olduğunu müşahidə etməkdəyik. Xalq kütləsi öz rəhbərinə inanmır, ordu zəif, əsgər ac və texniki cəhətdən təchizatsızdır və bununla yanaşı, erməni baş nazir özünü siyasi arenada rüsvay etməkdə davam edir. Elə də uzağa getməyərək, onun BBC-yə verdiyi müsahibəsində verilən suallar qarşılığında dalana dirənməsini, acizliyini də göstərə bilərik. Belə danılmaz faktlar qarşısında gülünc bəyanatların verilməsi isə heç bir məntiqə, düşüncəyə sığmır.

Bu gün nəinki Azərbaycan, hətta erməni xalqı da yaxşı bilir və dərk edir ki, Ermənistanın rəhbərliyi heç vaxt verdikləri publik bəyanatlarını həyata keçirməyə nə gücləri çatar, nə də buna cürət edə bilməzlər. Əksinə, Azərbaycan Ordusu qısa zamanda işğal altındakı ərazilərini, eyni zamanda, tarixi ərazilərini azad etmək qüdrətindədir və beynəlxalq siyasi mərkəzlər də bayaq qeyd etdiyim kimi, bizim tərəfimizdədir.

***- Cənab general-polkovnik, müsahibənizə görə çox sağ olun.***

- Buyurun, siz sağ olun.

*Rövşən RƏSULOV*

# Türkiyə səfiri Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcmasında olub



***Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcmasında Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral ilə icma üzvləri arasında görüş keçirilib. İcmadan SİA-ya verilən məluata görə, İcma rəhbəri, millət vəkili Tural Gəncəliyev səfir E.Özoralı Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasında görməkdən məmnun olduğunu bildirib.***

Qeyd edilib ki, bir millət iki dövlət olan Azərbaycan və Türkiyənin birgə fəaliyyəti Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının haqq səsinin beynəlxalq aləmdə daha çox eşidilməsinə təkan verib. İcma üzvləri gələcəkdə bu istiqamətdə fəaliyyətin daha da genişlənməsi üçün təkliflərini səsləndiriblər. E.Özoral bildirib ki, Türkiyə hər zaman Azərbaycanın yanında olub və olacaq. Səfir Ermənistanın işğalı zamanı evlərindən didərgin düşmüş soydaşlarımızın tezliklə dinc şəraitdə geri dönəcəklərinə əminliyini bildirib.

# “Biz, xalq olaraq 600-lü rəqəmləri 100-dən aşağı sala bildik”



***“Biz, xalq olaraq 6 yüzlü rəqəmləri 100-dən aşağı sala bildik. Bu da təbii ki, dövlət və vətəndaşın həmrəyliyi nəticəsində mümkün oldu”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədr müavini Jalə Əliyeva ölkəmizdəki pandemik vəziyyəti dəyərləndirərkən deyib.***

Onun sözlərinə görə, artıq yarım ilə yaxındır ki, COVID-19 pandemiyası bütün dünyanı təhdid edir, bütün dünya ölkələri ilə yanaşı Azərbaycanı da narahat edir, lakin, bu 6 ayda keçilən yola nəzər salsaq ölkəmiz sözün əsl mənasında bu çağırılmamış “qonaqla” mübarizədə bütün qüvvələri və imkanlarını səfərbər etdi: “Ən yüksək səviyyədə ölkə vətəndaşlarını qorumaq üçün böyük bir mübarizəyə qalxdı. Müvəffəqiyyətlə bu mübarizənin öhdəsindən gəldi. Statistik göstəricilər, əlimizdə olan rəqəmlər onu deməyə imkan verir ki, digər ölkələrlə müqayisədə Azərbaycan dövləti vaxtında atdığı addımlarla öz vətəndaşlarını bu bəladan maksimum şəkildə qoruya bildi. Pandemiyanın birinci mərhələsi kimi səciyyələndirdiyimiz dövr ölkəmiz üçün yüngül keçdi. Yoluxma sayı 100-dən aşağı idi, ölüm sayı demək olar çox az, yox səviyyəsində idi və sağalmaların sayı isə kifayət qədər çox idi. Bütün bunlar ölkə vətəndaşını düşünərək atılan addımların sayəsində mümkün oldu”.

Sədr müavini bildirib ki, tibbi-profilaktik tədbirlərlə yanaşı, eyni zamanda, sosial və iqtisadi sahələrdə də böyük işlər görüldü, dövlət öz vətəndaşını həqiqi mənada qorumağı bacardı: “Lakin, müəyyən bir dövrdən sonra vətəndaşlarda arxayınçılıq yarandı, birdən-birə bu virusun olduğu unuduldu və bu təyin olunan qaydalara riayət edilməməsinə gətirib çıxardı. Təbii ki, bununla da yoluxmaların sayı artdı. Bundan əvvəlki son bir ay yarım ərzində biz 6 yüzlü rəqəmlərə gəlib çatdıq və təbii ki, yenidən qadağalar sərtləşdirildi. Milli Məclis səviyyəsində İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər edildi, cərimələr artırıldı, lakin, bütün bunlar gəlişi gözəl qərarlar deyildi. Heç kəs vətəndaşının cibindən pulun əskilməsinə tərəfdaş deyil. Lakin, bu şəkildə bəlkə də vətəndaşda narahatlıq hissi yaratmağa çalışdıq. Bu cərimələrdən ehtiyatlanaraq vətəndaşların çağırışlardan nəticə çıxarıb qaydalara əməl etmələrini gözlədik. Həqiqətən də nəticəsi oldu. Biz artıq ikinci mərhələ andandıra biləcəyimiz dövrü də rahat bir şəkildə başa vururuq. Biz, xalq olaraq 6 yüzlü rəqəmləri 100-dən aşağı sala bildik. Bu da təbii ki, dövlət və vətəndaşın həmrəyliyi nəticəsində mümkün oldu”.

Jalə Əliyeva vurğulayıb ki, Prezident İlham Əliyevin artıq şüar kimi səslənən fikri “Biz birlikdə güclüyük!” hər bir vətəndaşın ayıq-sayıq şəkildə qaydalara riayət etməyə səsləyən bir çağırış idi və nəticədə biz statistikanı aşağı sala bildik. Millət vəkili qeyd edib ki, uzun müddət ictimai iaşə obyektləri, iri ticarət obyektləri və alış-veriş mərkəzləri bağlı qaldı, rayonlara gediş-gəliş məhdudlaşdırıldı, lakin, bütün bunların arxasında insan amili, ölkə vətəndaşının sağlamlığını qorumaq prinsipi dayanır: “Bu gün yenidən açılmalara gedilməsindən söhbət gedir. Uzun müddətdir ki, insanlarımız qapalı karantin rejimdə qalıb. Yay vaxtlarında bu daha dözülməz və çətin oldu. Övladlarımızın istirahəti və əyləncəsi üçün problemlər yarandı. Bütün bunların təbii ki, öhdəsindən gəlmək olar. Bir müddət istirahətsiz qalmaq olar. Evdən çıxmamaq da problem deyil. Biz bütün çağırışlarımızı bu istiqamətdə edirdik. Lakin, əgər bu gün Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda açılmalara gedilməsində heç bir problem görmürsə və müvafiq qərarlarla buna gedilirsə, təbii ki, biz də bu şəkildə davam etdirilməsini arzu edirik. Qarşıdan payız və qış ayları gəlir və deyildiyi kimi “ikinci dalğa” başlaya bilər. Buna hazır olmaq üçün sağlamlığımızın möhkəmlənməsi ehtiyac var. Ən azından müəyyən müddətinə də olsa sarı və narıncı zolaqlar üzrə rayonlararası gediş-gəliş təmin olunarsa insanlarımız da dincəlmək imkanı qazana bilər. Yeni iş mövsümünə, yeni tədris ilinə və digər fəaliyyətlərə daha möhkəm bir səhhətlə, sağlam şəkildə qayıtmış olar. Əlbəttə arzuladığımız odur ki, dövlətimiz və vətəndaşlarımız sağ-sağlamat bütün bu və digər problemlərin öhdəsindən gələ bilsin. Bununla da rahat bir şəkildə sosial və iqtisadi inkişaf təmin edilsin. Nəticə də bütün bu yumşalmalar məsuliyyətsizliyə gətirib çıxarmamalıdır. Unutmamalıyıq ki, bu gün yumşalmalara gedilən bir dövrdə məsələyə laqeyd yanaşmağımız yenidən bizim üçün problemlər yarada bilər”.

*Nigar Məmmədova*

## Hulusi Akar: Türkiyə Liviyanın ərazi bütövlüyünün qorunmasına və xalqın rifahına səy göstərir

Türkiyənin Liviyada mövcudluğu BMT tərəfindən tanınan Milli Keçid Hökumətinin dəvəti ilə həyata keçirilir. Liviyanın ərazi bütövlüyünün qorunması və xalqın rifahı naminə əlimizdən gələni edirik. AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Müdafiə naziri Hulusi Akar Türkiyə nümayəndə heyətinin Liviyaya səfərinin yekunlarını şərh edərkən deyib. Hər iki ölkənin 500 illik ortaq tarixə və mədəniyyətə sahib olduğunu diqqətə çatdıran nazir vurğulayıb ki, Türkiyənin Liviyadakı fəaliyyəti bundan sonra da davam edəcək.



İki ölkə arasında təhlükəsizlik və hərbi sahədə əməkdaşlığın davam etdiyini vurğulayan Hulusi Akar diqqətə çatdırıb ki, Türkiyə bu ölkədə çoxşaxəli humanitar fəaliyyət həyata keçirir. O cümlədən səhiyyə sahəsində genişmiqyaslı işlər görülür, ərazilər minalardan təmizlənməsi təmin edilir. Bütün bunlar Liviya xalqının təhlükəsizliyi və rifahı üçündür.

# Müdafiə naziri Zakir Həsənov gənclərlə görüşüb

***Gənclər və İdman Nazirliyi və Heydər Əliyev Mərkəzinin 2019-cu ildən həyata keçirdiyi “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının iştirakçıları bu dəfə Müdafiə naziri Zakir Həsənovla görüşdülər.***



Müdafiə naziri Zakir Həsənov



Gənclər və İdman Nazirliyindən SİA-ya verilən məlumata görə, nazir müavini İntiqam Babayev ilk növbədə layihənin məqsədi, nazirlik tərəfindən vətənpərvərlik sahəsində görülən işlər, artıq 20 ildən çoxdur ki, Müdafiə Nazirliyi, Gənclər və İdman Nazirliyinin əlaqədar qurumlarla birgə həyata keçirdiyi “Şahinlər” hərbi-vətənpərvərlik oyunu, ümumilikdə gerçəkləşdirilən layihə və tədbirlər haqqında qısaca məlumat verib. Nazir müavini bu tədbirlərdə 10 mindən artıq gəncin iştirakının təmin edildiyini bildirib. Müdafiə naziri Zakir Həsənov vətənpərvərliyin sadəcə əsgərlərin çiyninə düşmədiyini, tutduğu vəzifədən asılı olmayaraq hər bir vətəndaşa aid olduğunu diqqətə çatdırıb.

Çıxışının davamında nazir Zakir Həsənov bildirdi ki, düşmənin əsas işlərindən biri gənclərdə ölkəmizlə bağlı müxtəlif, xoşagəlməz fikirləri formalaşdırmaqdır. “Bu gün azərbaycanlı adı ilə qeydiyyatdan keçən çoxsaylı ermənilər var. Onların əsas məqsədi bir çox Azərbaycan gəncinin vətəninə, ölkəsinə, dövlətinə qarşı mənfi rəyini formalaşdırmaqdır. Mütləq şəkildə 2 hədəfimiz olmalıdır. İlk növbədə gənclər hər bir işdə həmrəy olmalıdırlar. Digər məqam, bir-birimizə dəstək olmağımızdır. Biz daim çiyin-çiyinə vətən uğrunda döyüşlərə, onun müdafiəsinə hazır olmalıyıq.”

Daha sonra nazir Zakir Həsənov gənclərin Tovuz döyüşləri, Azərbaycanın ordu quruculuğu, Azərbaycan-Türkiyə birgə hərbi təlimləri və digər mövzular barədə sualları cavablandırıb.

“Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramının əsas məqsədi gənclərdə müstəqil dövlətçilik ənənələrinə hörmət və sədaqət hissinin gücləndirilməsi ilə onlarda liderlik keyfiyyətlərinin inkişafına şərait yaratmaqdır. Qeyd edək ki, cari ilin aprel ayından start verilmiş proqramda iştirak etmək üçün 350-dən artıq gənc müraciət edib. İlkin seleksiyadan sonra 171 gənclə onlyan formada müsahibə aparılmış və nəticədə 30-a yaxın rayondan 115 gənc iştirakçı kimi seçilmişdir. Proqramı uğurla başa vurmuş gənclərə diplom və gənc liderin döş nişanı təqdim ediləcək.

İştirakçıların seçimi zamanı onların ictimai fəallığı, təşkilatçılıq bacarıqları, dünya görüşləri və hadisələrə baxışları, ünsiyyət və əlaqə qurmaq bacarıqları, komandada işləmək təcrübəsi kimi meyarlara üstünlük verilir. Avqust-oktyabr aylarında proqram çərçivəsində onlayn formada rəsmi şəxsərlə görüşlər, vebinarlar və təlimlərin keçirilməsi nəzərdə tutulub. Proqramın həyata keçirilməsi Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının Tədbirlər Planının 5.1.1-ci yarımbəndinin (ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliğ olunması) icrasını əhatə edir.

# Eldar İbrahimov: “ATƏT-in Minsk qrupu yalnız Ermənistana kömək edir”



“Ermənistanın Azərbaycan ərazilərini vurmaqla bağlı səsləndirdiyi fikirlər boş xülyadır. Onların Azərbaycanın heç bir ərazisini vurmağa imkanları yoxdur. Lakin, Azərbaycan istəsə istənilən hərbi əməliyyatı icra edə bilər. Lakin, biz məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Lakin, məsələ sülh yolu ilə həll olunmadığı təqdirdə Azərbaycan öz hərbi gücünü göstərməkdən çəkinməyəcək. Bu əsasla ATƏT-in Minsk qrupunun həmsədrləri məsələyə ciddi yanaşmalı və təsirli bir tədbir görməlidir. Əgər əllərindən heç nə gəlmirsə, o zaman ATƏT-in Minsk qrupunun həmsədrləri dəyişməli ya da bura yeni ölkələr təyin olunmalıdır”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin İntizam Komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov, Ermənistanın Gəncəni vurmaqla bağlı təxribat xarakterli bəyanatlarının ATƏT-in Minsk qrupu tərəfindən cavabsız qaldığı ilə bağlı danışarkən deyib.

Millət vəkili bildirib ki, dəfələrlə ATƏT-in Parlament Assambleyasında olub və ATƏT-in Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin hesabatlarında iştirak edib və bütün bu proseslərə bələddir.

Eldar İbrahimov bildirib ki, bu qurumlar nəinki, məsələni həll edirlər, hətta, ermənilərə kömək belə edirlər: “Mən bunu dəfələrlə səsləndirmişəm. Hətta, adını çəkmək istəmədiyim bir mənbə ilə, ATƏT-in Parlament Assambleyasının xüsusi nümayəndəsi ilə səmimi bir söhbət aparmışdıq və o bildirdi ki, ermənilərin hər yerdə adamları var və bir sözlə gücləri çatmır. Yəni, demək istədiyim odur ki, ATƏT-in Minsk qrupunun həmsədrləri bu məsələdə 30 ilə yaxın müddətdə heç 30 millimetr də irəliləyiş əldə edə bilməyiblər. Ona görə də hesab edirəm ki, ATƏT-in Minsk qrupundan imtina edilməli, yeni ölkələr bu məsələ ilə məşğul olmalıdır. Düzdür, dünyanın ən böyük ölkələrindən, ABŞ, Fransa və Rusiyadan burada həmsədrlər iştirak edir. Lakin, onlar bu məsələdə heç bir iş görmürlər. Əksinə, bu məsələni sülh yolu ilə həll etmək əvəzinə, hətta, Ermənistana kömək belə edirlər”.

YAP İdarə Heyətinin üzvü əlavə edib ki, ATƏT-in Minsk qrupunun işinə yenidən baxılmalı, yeni ölkələr bura daxil olmalı ya da yeni ölkələrdən ibarət heyət yaradılmalıdır: “Bu illərdə ATƏT-in Minsk qrupu özünü doğrultmadı. Bəlkə, ermənilər üçün özünü doğrultdu, çünki, məsələnin həlli gecikdirildi, müxtəlif məsələlər ortaya atıldı, lakin, bunların heç birinin nəticəsi olmadı. Bundan da sonra onların fəaliyyətindən heç bir nəticə gözləmirəm. Əksinə, Azərbaycana qarşı yalnız pislik gözləyirəm”.

*Nigar Məmmədova*

# “The Jerusalem Post”: Azərbaycan nümunəvi tolerantlıq və açıq cəmiyyət nümunəsidir

***“The Jerusalem Post” qəzeti jurnalist Maayan Hofmanın Azərbaycanın nümunəvi tolerantlıq və açıq cəmiyyət nümunəsi olmasından bəhs edən məqaləsini yayıb.***

Məqalədə ABŞ və Yaxın Şərq ictimaiyyətinin diqqət mərkəzində olan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İsraillə əlaqələri normallaşdırmasına dair qərarından bəhs edilir və bununla əlaqədar Azərbaycanın örnək olduğu məsələlərə diqqət yetirilir. Müəllif 26 ildən sonra yəhudi və müsəlman dövləti arasında imzalanacaq ilk sülh müqaviləsinin əhəmiyyətini qeyd edir, İsrailin müsəlman ölkəsi Azərbaycanla 1992-ci ildən davam edən tərəfdaşlıq münasibətlərinə nəzər salır.


THE JERUSALEM POST CORONAVIRUS ISRAEL NEWS WORLD NEWS MIDDLE EAST U.S. POLITICS DIASPORA OPINION

Azerbaijan to UAE: Four ways you will benefit from peace with Israel

Analysis: This is the first Mideast peace treaty in 26 years, but it is not unprecedented for a Muslim-majority country and Israel to enjoy strategic ties.

By MAAYAN JAFFE-HOFFMAN AUGUST 15, 2020 22:16

Abu Dhabi's Crown Prince Mohammed bin Zayed's decision to normalize ties with Israel was well calculated – a move that was made with the understanding that the technology, geopolitical and religious rewards would far outweigh any risks.

This is the first Mideast peace treaty in 26 years, but it is not unprecedented for a Muslim-majority country and Israel to enjoy strategic ties. Muslim-majority Azerbaijan and Israel established diplomatic ties in April 1992 that have been developing ever since.

Read More Related Articles
- Lebanese president doesn't rule out possibility of peace with Israel
- Trump: West Bank annexation off the table, Christianity part of UAE deal
- Incredible New Anti-Snoring Device Takes Azerbaijan by Storm

Subscribe for our daily newsletter

Hot Opinion
- Netanyahu's secretive style of governance is an insult to his — By JPOST EDITORIAL
- Mabrouk and mazel tov to all Muslims and Jews in this new — By RONALD S. LAUDER
- Netanyahu's perception of democracy is full of factual — By SUSAN HATTIS ROLEF
- The Israel-UAE Agreement: A Message to Iran, the — By EYTAN GILBOA
- Remembering Rabbi Adin Steinsaltz, intellectual — By AMOTZ ASA-EL

Bu xüsusda İsrailin Azərbaycandakı səfiri Corc Dikin “Twitter” hesabında məsələ ilə bağlı paylaşımına diqqət çəkən jurnalist diplomatın “Azərbaycanın İsraillə 30 ilə yaxın davam edən dostluq və tərəfdaşlıq münasibətləri digər müsəlman ölkələrinə nümunədir” sözlərini sitat gətirir.

Eyni zamanda, ABŞ-da yerləşən Demokratiyaların Müdafiəsi Fondunun icraçı direktoru, tanınmış analitik Mark Dubovitz “Twitter” hesabında məsələ ilə bağlı paylaşımında qeyd edib ki, İsraillə dostluqda öndə gedən Azərbaycan açıq münasibətləri ilə rəsmi Təl-Əvivin müsəlman aləmində qəbul edilməsinə böyük töhfə verib.

ABŞ-ın Etnik Anlaşma Fondunun prezidenti ravvin Mark Şnayerdən də sitat gətirən müəllif qeyd edir: “Dünyadakı 57 müsəlman ölkəsi arasında Azərbaycan İsrailə ən çox dəstək verən dövlətdir və heç bir ölkədə yəhudi icmasına Azərbaycanda olduğu kimi hörmətlə davranılmır. Azərbaycan nümunəsi geniş müsəlman dünyasına İsraillə güclü əlaqələrin ABŞ Konqresinin hörmət və dəstəyi ilə nəticələndiyi mesajını verir”.

Həmçinin məqalədə Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanovla müsahibəyə istinadlar edilir. Bildirilir ki, səfir İsrailin texnologiya, kənd təsərrüfatı, telekommunikasiya və müdafiə sahələrində Azərbaycanın əvəzedilməz tərəfdaşı olduğunu qeyd edib. Azərbaycanın İsraillə yaxın münasibətləri ABŞ Konqresinə də təsirsiz ötüşməyib və öz müsbət nəticələrini göstərib.

Müəllif E.Süleymanova istinadən bildirir ki, Azərbaycan hökuməti ölkə ərazisindəki yəhudi icmasının dini fəaliyyətini dəstəkləyir, buradakı köhnə sinaqoqlar bərpa olunub, yeniləri inşa edilib. Azərbaycan tolerant, açıq cəmiyyəti olan ölkədir və bunun faydalarını görməkdədir. İsrail-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasında insanlar arasındakı əlaqələr böyük önəm daşıyır. Uzun illər ərzində xalqlarımız arasında dostluq və inam formalaşıb. Bu səbəbdən də münasibətlərin bünövrəsini məhz insanlar təşkil edir. ABŞ, Azərbaycan və İsrailin yəhudi və müsəlman icmaları bu münasibətlərə töhfə verirlər. Azərbaycanla İsrail arasında mədəniyyət və turizm sahələrində də geniş əlaqələr mövcuddur.

## Vüqar Rəhimzadə: “Beynəlxalq təşkilatlar işğalçıdan izahat tələb etməlidirlər”



“Azərbaycan Ordusu tərəfindən Tovuz rayonu istiqamətində Ermənistanın təxribatlarının qarşısının qətiyyətlə alınması, düşmənə sarsıdıcı cavab zərbələrinin vurulması işğalçı ölkəni çox çətin duruma salıb. Sərhəd təxribatında olduğu kimi, xarici ölkələrdəki sabotajlarında da fiaskoya uğrayan Ermənistan rəhbərliyi bu günlər çaşqınlıq içərisindədir. Xüsusilə Türkiyə ordu hissələrinin ölkəmizin ərazisində Azərbaycan Silahlı Qüvvələri ilə birgə hərbi təlimlər keçirməsi rəsmi Yerevanda isterika, panika və ajiotaj yaratmaqdadır. Bu səbəbdən də işğalçı dövlətin rəhbərliyi irrasional bəyanatlar verir, intuitiv addımlar atır”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə qeyd edib ki, siyasi savadsızlığı ilə özünü dəfələrlə gülüş hədəfinə çevirmiş baş nazir Nikol Paşinyandan sonra işğal edilmiş Dağlıq Qarabağdakı qondarma rejimin oyuncaq başçısı Araik Arutunyan da başından böyük danışıb və deyib ki, əgər Xankəndinə (o, Stepanakert deyib) raket və ya bomba atılsa, cavab olaraq Gəncəni (o, öz erməni xislətinə uyğun olaraq Gəncəni Kirovabad adlandırıb) vuracağıq: “Bundan əvvəl isə Ermənistanın müdafiə naziri Mingəçevir SES-i vuracaqlarını iddia edirdi. Bütün bunlar bir daha ona şahidlik edir ki, işğalçı ölkə və onun Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaratdığı qondarma rejim panika içərisindədir. Bu səbəbdən də isterik bəyanatlar verir, biri-birinin ardınca siyasi səhvlər buraxırlar. Sözsüz ki, beynəlxalq təşkilatlar, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrləri işğalçı qüvvələrin Azərbaycanın ikinci böyük şəhərini vurmaqla hədələməsini nəzarətə götürməli, Ermənistan hakimiyyəti hədə ilə bağlı beynəlxalq təşkilatlara izahat verməlidir. O da faktdır ki, ATƏT-in Minsk qrupunun həmsədrləri indiyədək Ermənistanın bu cür fitnəkar bəyanatlarına münasibət bildirməyib, lazımı addımlar atmayıb”.

Baş redaktor vurğulayıb ki, ATƏT-in Minsk qrupu üzərinə götürdüyü öhdəlikləri uzun illərdir yerinə yetirə bilmir: “Həmsədr ölkələr işğalçını müdafiə edirlər. Faktlar da onu göstərir ki, həmsədr ölkələr birtərəfli mövqe tutaraq işğalçıya dəstək verirlər. Buna görə də ATƏT-in Minsk qrupu buraxılmalı, onun fəaliyyətinin yenidən təşkilinə baxılmalı, Minsk qrupunda təmsil olunan Türkiyə həmsədr ölkə qismində prosesə cəlb edilməlidir”.

# Müdafiə Nazirliyi: “Hər bir əsgər hərbi xidmətdə olduğu müddətdə peşəkar hərbi həkimlər tərəfindən müayinə və müalicə edilir”

***Müdafiə Nazirliyi müddətli həqiqi hərbi xidmətdə olan Yaqublu Rəhim Tofiq oğlunun hərbi xidmətdən əvvəl futbol oynayarkən dizindən aldığı travma ilə əlaqədar guya hərbi hissədə müalicə edilmədiyi və əməliyyata ehtiyac olması barədə sosial şəbəkələrdə yayılan məlumatlara münasibət bildirib.***



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilib ki, hərbi xidmətdə olan hər bir hərbi qulluqçunun ailə vəziyyəti, sosial statusu, cəmiyyətdə tutduğu mövqeyi və digər amillərdən asılı olmayaraq onlar nizamnamələrin tələblərinə uyğun qaydada xidmət keçir və komandanlıq tərəfindən eyni diqqət və qayğı ilə əhatə olunurlar.

“2020-ci ilin yanvar ayında hərbi xidmətə çağırılmış əsgər R.Yaqublu ilə bağlı bildiririk ki, o, hazırda hərbi xidmətdədir və xidmətini normal şəraitdə davam etdirir. Xidmətlə bağlı hər hansı bir narazılığının olmadığını özü də etiraf edir.

Hərbi xidmətdən əvvəl sol ayağının diz nahiyəsindən aldığı travma ilə bağlı o, cari ilin fevral, aprel və iyul aylarında bir neçə dəfə hərbi hospitalda hərbi həkim-travmatoloqlar tərəfindən müayinə olunub. Diaqnozlar əsasında bu travmanın xidmətə maneə yaratmadığına, hər hansı əməliyyata ehtiyac olmadığına dair əsgərin tibb kitabçasında müvafiq qeydlər aparılıb. Bununla belə, əsgər R.Yaqublu müayinə olunması üçün sabah yenidən hərbi tibb müəssisəsinə göndəriləcək.

Qeyd edirik ki, hər bir hərbi qulluqçunun özünün və ailə üzvlərinin istənilən müraciətinə həssaslıqla yanaşılır, məsələnin dərhal araşdırılaraq müsbət həlli istiqamətində müvafiq tədbirlər görülür. Hərbi xidmətdə olduğu müddətdə zərurət yarandıqda hər bir əsgər peşəkar hərbi həkimlərimiz tərəfindən müayinə və müalicə olunurlar.

Bir daha bildiririk ki, sosial şəbəkələr vasitəsilə məsələnin siyasiləşdirilərək hərbi xidmətə müdaxilə olunması cəhdini qəti surətdə rədd edir və bu kimi hərəkətləri qəbuledilməz hesab edirik”, -deyə məlumatda bildirilib.

## Bəhruz Quliyev: “Erməni tərəfi gec, ya da tez ədalət və hərbi gücümüz qarşısında diz çökəcək”



***“SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev “BBC-nin “HARD Talk” proqramında Ermənistanın baş naziri Nikol Paşinyanın verilən suallar qarşısında aciz vəziyyətə düşməsi və rüsvay olması ilə bağlı açıqlama verib. SİA”İki Sahil”ə istinadən xəbər verir ki, baş redaktor sözügedən məsələyə münasibətini açıqlayarkən deyib ki, bu, Nikol Paşinyanın həyatında yaşadığı ən ağır fiaskolarından biri oldu və bundan sonra beynəlxalq aləmdə, siyasi dairələrdə ona olan münasibət daha çox qeyri-ciddiliyi ilə seçiləcək.***

Bəhruz Quliyevə görə, erməni baş nazir ölkəsinin işğalçı və təcavüzkar olduğunu ciddi-cəhdlə suallardan yayınmaq vasitəsi ilə ört-basdır etməyə çalışdıqca, bu fakt özü-özünü daha açıq şəkildə isbatladı, sübut olundu ki, onun bəhanələri əbəsdir və BMT-nin qətnamələri də daxil olmaqla, beynəlxalq aləm Ermənistanı işğalçı kimi tanıyır: “Xüsusilə, Tovuz istiqamətindəki məlum təxribat, mülki obyektlərimizin, fərdi evlərin atəşə tutulması, dağıdılması və vətəndaşımızın öldürülməsi faktları onu dalana diradi və eyni zamanda, digər danılmaz amillər Paşinyanın acizliyini daha qabarıq fonda sərgiləmiş oldu. Gəlin baxaq və bir daha aydınlaşdıraq ki, hansıdır həmin amillər..?”

O, növbəti misalları gətirib: “Baxın, ermənilərin baş naziri iddia edir ki, münaqişə tərəfi Ermənistan deyil və guya ki, qondarma, dünyanın heç bir dövlətinin tanımadığı “DQR”dir və Azərbaycan, məhz onlarla danışıq masasına oturmalıdır və s. Sual yaranır, əgər tutaq ki, belədirsə onda Ermənistan hansı səbəblərlə işğal olunmuş ərazilərimizdə magistral yol çəkir? Ermənistan rəhbərliyi, eləcə də güc strukturlarının tez-tez Qarabağa səfərlərinin arxasında başqa hansı məqsədlər dayanır? Bu səfərlər söz yox ki, sülh məqsədini daşımır, bu səfərlər təcavüzkarlıq siyasətinin davamıdır.

Yaxud, Ermənistan bu münaqişədə tərəf olmadığını bəyan edirsə, çıxarılan qətnamələr niyə məhz Ermənistana aid olunur? Avropa parlamentarilərinin bəyanatları nəyə görə birbaşa Ermənistan rəhbərliyinə ünvanlanıb? Bənzər suallar kifayət qədər çoxdur və onların hər birinə verilən cavablar da var - bu, Ermənistanın işğalçı dövlət olmasıdır ki, hazırda Nikol Paşinyan yaxasını qurtarmaq üçün işıq ucu tapa bilmir. Çünki işıq ucu ümumiyyətlə, yoxdur”.

Daha bir xatırlatma edən Bəhruz Quliyev bildirib ki, bu, Prezident İlham Əliyevin Nikol Paşinyana göndərdiyi qətiyyətli və sərt ismarıcı ilə bağlıdır: “Liderimiz öz çıxışında vurğulamışdı ki, əgər Ermənistan bu qədər cürətlidirsə, qorxmursa, o zaman “DQR”i dövlət olaraq tanısın. Görürsünüzmü, Ermənistan rəhbərliyi buna cürət etmədi, qorxdu. Çünki haqqın, ədalətin və gücün Azərbaycan tərəfində olduğunu yaxşı bilir, dərk edir. Əlbəttə ki, Paşinyanı sərrast sualları ilə güncə sıxışdıran Stefen Sakur da bu gerçəklikləri bilir və ona görə də erməni baş nazirindən etiraf cavablarını almağa çalışırdı. Amma gördüyümüz kimi, Paşinyan sadəcə qaçdı - qorxaq və suallar altında qalaraq əzilmiş şəkildə fiaskoya uğradı. Bundan isə təəccüblənməyə dəyməz. Çünki ortada işğalçılıq, təcavüzkarlıq sübutu dayanıb. Hesab edirəm ki, istər Paşinyan olsun, istərsə də bir başqası - erməni tərəfi gec, ya da tez ədalət və həqiqət, eyni zamanda, hərbi gücümüz qarşısında diz çökməli olacaq. Buna isə şübhə yoxdur”.

# "Tovuzdakı uğursuzluq Ermənistanı yeni təxribatlara əl atmağa vadar edir"

İşğalçı Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllində maraqlı olmadığını dəfələrlə sübut edib. Münaqişənin sülh yolu ilə həllindən müxtəlif bəhanələrlə yayınan rəsmi Yerevanın məqsədi status-kvonu qoruyub saxlamaq, işğalçılıq siyasətini davam etdirməkdir. Təcavüzkar dövlətin Dağlıq Qarabağda yaratdığı separatçı rejimin fəaliyyəti, onun təmsilçilərinin vaxtaşırı olaraq səsləndirdikləri məntiqsiz fikirlər də məhz bu məqsədə xidmət edir.



Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Fatma Yıldırım deyib. Deputat qeyd edib ki, iyulun 12-16-da Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan mövqelərinə hücum cəhdinin iflasa uğraması, ordumuz tərəfindən düşmənə layiqli cavab verilməsi Ermənistan hakimiyyətini çətin duruma salıb. Hazırda işğalçı ölkənin rəhbərliyi törətdiyi hərbi təxribatın uğursuzluğa düçar olmasını səbəbindən onu digər müstəvilərdə kompensasiya etməyə çalışır.

F.Yıldırımın sözlərinə görə, bütün bunlar Ermənistanın səbəb olduğu münaqişənin nəticələrini aradan qaldırmaq deyil, qanunsuz güc tətbiqi ilə yaratdığı işğal vəziyyətini möhkəmləndirmək məqsədi güdməsinin əyani təzahürüdür. "Ermənistanın hərbi-siyasi dairələrinin Azərbaycanın iri yaşayış məntəqələrini və Mingəçevir SES kimi strateji əhəmiyyətli mülki obyektləri "hərbi hədəf"ə alacağı ilə bəyanatının ardınca separatçı rejimin qondarma "başçısı" Araik Arutyunyanın Gəncə şəhərini vuracaqları ilə bağlı təhdidi hiddət doğurur. Bütün bunlar təcavüzkar siyasətindən əl çəkməyən Ermənistanın terrorçu mahiyyətini ifşa edir. Görünür, Tovuz döyüşlərindəki uğursuzluq Ermənistanı yeni təxribatlara əl atmağa vadar edir. Ermənistan artıq Azərbaycanın yaşayış məntəqələrini atəşə tutmağa adət edib və bununla öz faşist simasını dəfələrlə göstərib. İşğalçı Ermənistan növbəti dəfə ənənəvi metoduna əl ataraq, mülki obyektləri və əhalini hədəf almaqla terror təşkilatlarına xas şəkildə mülki əhali arasında qorxu yaratmaq məqsədi güdür", - deyən deputat qeyd edib ki, beynəlxalq təşkilatlar, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrləri işğalçı qüvvələrin Azərbaycanın ikinci böyük şəhərini vurmaqla hədələməsi məsələsini nəzarətə götürməli, Ermənistan hakimiyyəti hədə ilə bağlı beynəlxalq təşkilatlara izahat verməlidir.

"Amma bu da faktdır ki, ATƏT-in Minsk qrupunun həmsədrləri indiyədək Ermənistanın bu cür fitnəkar bəyanatlarına münasibət bildirməyib, bununla bağlı lazımi addımlar atmayıb. Bəs görəsən, həmsədrlər niyə susurlar? Həmsədrlərin bu cür mövqe nümayiş etdirməsi, işğalçı Ermənistana təzyiq göstərilməməsi, əksinə, dolayı yolla ona dəstək verilməsi Azərbaycan cəmiyyətində haqlı narazılıq yaradır. Artıq xalqımız ATƏT-in Minsk qrupuna etimad göstərmir. Əgər belə davam edərsə, münaqişənin həlli prosesində Minsk qrupunun formatı dəyişdirilməlidir. Ermənistanın işğalçılıq siyasətinə adekvat qiymət verilməli, onun bütövlükdə region üçün ciddi fəsadlara gətirib çıxara biləcək addımlardan çəkindirilməsi və münaqişənin dinc yolla nizama salınması məqsədilə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri qeyd-şərtsiz icra olunmalıdır".

# İranın yeni səfiri Bakıya gələcək



İran İslam Respublikasının Azərbaycana yeni təyin edilən səfiri Seyid Abbas Musəvinin Bakıya nə vaxt gələcəyi məlum olub. SİA xəbər verir ki, diplomat Bakıya avqustun 21-də gələcək. Qeyd edək ki, S.A.Musəvi bundan əvvəl 2019-cu ilin aprel ayından Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri olub.

# İspaniya mediası Azərbaycanın inkişafından yazdı


"No sólo las empresas, todo el mundo tiene grandes posibilidades en Azerbaiyán"

"La posición de España es la de un país que cuida y respeta su integridad territorial"

İspaniyanın "LA ULTIMA" qəzetində ölkəmizə həsr olunmuş "Azərbaycanda nəinki biznes üçün, hər kəsin böyük imkanları var" başlıqlı müsahibə dərc olunub. SİA-nın xəbərinə görə, Azərbaycan-İspaniya Mədəniyyət və Ticarət Assosiasiyasının (ACAE) prezidenti Fərid Mustafayev qəzetə müsahibəsində ermənilərin Dağlıq Qarabağı işğal etməsini sərt şəkildə pisləyib. O, bildirib ki, Azərbaycan bir daha belə hərbi təcavüzlərin baş verməsinə yol verməyəcək.

Azərbaycan torpaqlarının 20 faizinin uzun illərdir Ermənistanın işğalı altında saxlanıldığına diqqəti cəlb edən ACAE prezidenti qeyd edib ki, bu təcavüzkar ölkə beynəlxalq təşkilatların torpaqlarımızın dərhal və qeyd-şərtsiz azad olunmasına dair qərar və qətnamələrinə məhəl qoymur. "Əksinə, işğal olunmuş və sərhədyanı bölgələrdən Azərbaycanı atəşə tuturlar və bu da nəinki hərbçilərin, hətta mülki insanların həlak olmasına səbəb olur".

Buna misal olaraq Ermənistanın iyul təxribatlarını xatırladan F.Mustafayev qeyd edib ki, sülhsevər Azərbaycan hər an bu işğalçı ölkənin hərbi təxribatları və terroru ilə üzləşə bilər. O, bildirib ki, Avropa Birliyi və bu birliyin üzvü olan İspaniya hər bir ölkənin öz suverenliyini və ərazi bütövlüyünü qorumaq prinsipinə hörmətlə yanaşır: "Bütün demokratik və inkşaf etmiş ölkələr bunu gözəl bilir və bu prinsipi dəstəkləyir".

ACEA sədri deyib ki, pandemiya ilə mübarizədə Azərbaycan koronavirusa qalib gəlmək üçün bütün zəruri addımları atıb: "...Və belə də davam edir. Yeni modul xəstəxanaların qurasdırılması, yeni tənəffüs aparatlarının alınması və sair tədbirlər Prezident İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilir. Hazırda Azərbaycanda virusa yoluxanların sayı xeyli azalıb".

O, qeyd edib ki, çox qədim tarixə, ənənələrə, güclü iqtisadiyyata, turizm sahəsində böyük imkanlara malik olan Azərbaycan xarici sərmayənin qoyulması üçün münbit ölkədir və bir çox böyük şirkətlər uzun illərdir burada fəaliyyət göstərir. "Mən əminəm ki, ispanlar və ya avropalılar üçün Azərbaycan tarixi-memarlıq abidələri, əsrarəngiz təbiəti və mətbəxi ilə maraqlı ölkədir. ACAE olaraq biz Azərbaycanda turizmin inkişafı üçün ardıcıl tədbirlər görməkdəyik", - deyə F.Mustafayev bildirib.

# Paşinyanın həbs fotoları yayıldı!



Erməni fotojurnalist Qaqik Şamşyan öz "Facebook" səhifəsində 2010-cu il noyabrın 19-da Ermənistanın Araqatsotn vilayətinin ümumi yurisdiksiya



məhkəməsində "Haykakan jamanak" qəzetinin baş redaktoru, siyasi məhbus Nikol Paşinyanın məbuat konfransından arxiv fotolarını paylaşıb. SİA "ordu.az"a istinadla xəbər verir ki, "Haykakan jamanak" qəzetinin redaktoruna qarşı Ermənistan Cinayət Məcəlləsinin 316 və 225-ci maddələri ittiham irəli sürülmüşdü. 2009-cu il iyulun 1-də Nikol Paşinyan könüllü şəkildə özünü Ermənistan Baş Prokurorluğuna təqdim edib və orada həbs olunub. Xatırladaq ki, Nikol Paşinyan 2008-ci il martın 1-dən sonra axtarışda olaraq ömrünün 1 il dörd ayını gizlənməkdə keçirib.

# ABŞ sentyabrın 21-nə qədər Meksika və Kanada ilə sərhədləri açmayacaq



ABŞ Daxili Təhlükəsizlik Nazirliyinin katibi vəzifələrini icra edən Çad Vulf sentyabrın 21-nə qədər Meksika və Kanada ilə sərhədlərin açılmayacağını elan edib. AZƏRTAC "Travel and Leisure" jurnalına istinadla xəbər verir ki, Kanadanın İctimai Təhlükəsizlik naziri Bill Bler də ABŞ-ın cənub qərbində koronavirusa yoluxma hallarının artması səbəbindən bu qərarı dəstəklədiyini bildirib. Buna baxmayaraq yük maşınlarının sürücüləri, tibb işçiləri və aviakompaniya ekipajlarına əvvəlki kimi sərhədi keçməyə icazə verilib. Qadağa evlərinə qayıdan amerikalılara və kanadalılara da aid edilmir.

Qeyd edək ki, mart ayının 11-də Dünya Səhiyyə Təşkilatı COVID-19 xəstəliyinə səbəb olan yeni koronavirusun yayılmasını pandemiya elan edib. Pandemiyanın statistikasını aparan Worldometer saytının son məlumatına əsasən, ABŞ-da koronavirusa 5 milyon 613 min 357 yoluxma və 173 min 778 ölüm faktı qeydə alınıb, 2 milyon 974 min 788 nəfər isə COVID-19 xəstəliyindən sağalıb.

# ÜST-dən koronavirusla bağlı yeni ÇAĞIRIŞ:
## Karantin tətbiq etməyin

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) dünyaya müraciət edərək, yeni koronavirus infeksiyasına görə daha karantin tətbiq etməməyə çağırıb, baxmayaraq ki, əvvəl bunun əksini tələb edirdi.***

SİA-nın məlumatına görə, uzun müddət idi ÜST dünyanın dəmək olar ki, bütün ölkələrinə, pandemiyanın inkişafını yüngülləşdirən sərt karantin rejiminə bağlanmağı tövsiyə edirdi. Və budur, indi təşkilatın baş epidemioloqu Maria van Kerkxov ikinci və sonrakı COVİD-19 dalğalarında karantinin yolverilməz olduğunu bəyan edib.

"Demə, karantinin iqtisadi nəticələri dəhşətli dərəcədə çoxdur və tibbi planda şərti qazancı xeyli üstələyir. İkincisi, ÜST ekspertlərinin fikrincə, pandemiya dövründə maska geyilməsi və sosial məsafəyə riayət olunması tamamilə kifayətdir",- deyə "Medikforum" yazır. Bundan başqa, BMT-nin rəhbəri Antoniu Quterriş karantin dövründə məktəblərin bağlanmasını "nəsillərarası fəlakət" adlandırıb və bunun heç bir müsbət nəticə vermədiyini bildirib. Mütəxəssislərin sözlərinə görə, həkimlər məhdudiyyətlərə görə insult, xərçəng və infarkt xəstələrini buraxıblar.



Beləliklə, karantin həm də bəzi xəstəlikləri kəskinləşdirə bilər.

# “Xarici və daxili qaragüruhun hələ uzun müddət yuxusu ərşə çəkiləcək”

***İti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 17 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı şoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin “müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək”, - fikri təsadüfi sayılmamalıdır.***

Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ilə “Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə “Bakı-Tbilisi-Ərzurum” kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, “neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı”. Söhbət ilk növbədə “Cənub” qaz dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas həlqələrdən biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə bu məsələ də öz müsbət həllini tapdı. “Şahdəniz-2” layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə isə “Cənub” qaz dəhlizinin Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Qarsda TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə anoloji addım TAP layihəsi ilə bağlı atıldı. Nəhayət, 2018-ci il mayın 29-da “Cənub” qaz dəhlizinin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. 2019-cu ilin 30 noyabr tarixində isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı oldu. TAP üzrə işlər özünün yekun mərhələyə daxil olmuşdur.



*Elman Nəsirov*
*Milli Məclisin deputatı,*

Prezident İlham Əliyev “Cənub” qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: “Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, “Cənub” qaz dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər”.

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.

Ölkəmizin uğurlarını gözü götürməyən, qarayaxma və iftiralarla dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmaq istəyən ermənipərəst qüvvələr və onlarla əlbir olan bəzi siyasi dairələr iddialar irəli sürürdülər ki, Azərbaycanın nefti tükənmişdir və xarici neft şirkətləri tezliklə öz ölkələrinə qayıdacaqlar. Cənab Prezidentin çıxışında səslənən təkzibedilməz arqumentlər və yeni kontraktin imzalanması faktı əleyhdarlarımızın yuxusuna haram qatmış oldu. Bundan sonra da enerji təhlükəsizliyi sahəsində qazanacağımız növbəti uğurlar xarici və daxili qaragüruhçuların hələ uzun müddət yuxularını ərşə çəkəcək.

Həmin uğurlardan biri də avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimində qoyuldu. Cənab Prezidentin qeyd etdiyi kimi, “Qarabağ” yatağının dəniz işlərinə start verildi. Bu yataq müstəqillik dövründə Azərbaycanda kəşf edilmiş birinci neft yatağıdır. “Azəri”, “Çıraq”, “Günəşli” yataqları sovet dövründə kəşf edilmişdir. “Şahdəniz” və “Abşeron” yataqları qaz-kondensat yataqlarıdır. Neft yatağı olaraq bu, birinci yataqdır və bu nəhəng qurğu Xəzər dənizində inşa edilmiş ən böyük qurğudur”.

“Qarabağ”yatağından 2022-ci ilin sonunda ilk qaz və ilk neft çıxarılmalıdır. Yatağının neft potensialı 60 milyon ton səviyyəsində qiymətləndirilir. Hasilata gəldikdə isə, bu yataqdan ildə ən azı 1,5 milyon ton neft və 1,5-1,8 milyard kubmetr qaz hasil edilməsi proqnozlaşdırılır..

Gələn il isə “Abşeron” qaz-kondensat yatağından ilk qazın hasilatı gözlənilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Abşeron” yatağının işlənilməsinin iki mərhələsi olacaqdır. Birinci mərhələ nəticəsində 1,5 milyard kubmetr qaz hasil ediləcək və bu qaz Azərbaycanda istehlak olunacaq. Çünki artan sənaye potensialımız diktə edir ki, bizə əlavə resurslar lazımdır. Ona görə 1,5 milyard kubmetr qaz ölkə daxilində istehlak olunacaq. Eyni zamanda “Abşeron” yatağının ikinci mərhələsinin başlanmasına da yaxınlaşırıq. Orada hasilatın 3-4 dəfə artıq olacağı proqnozlaşdırılır. Bu da ölkəmizin qaz potensialına müsbət təsir göstərəcəkdir.

Bütün bunlardan savayı, “Şəfəq-Asiman” yatağı üzrə də işlər qrafik üzrə gedir, qazma işləri aparılır. Mütəxəssislərin ilkin rəyinə görə, orada təqribən 400-500 milyard kubmetr həcmində qaz ehtiyatının mövcudluğunu qeyd olunur

Sonda Prezident İlham Əliyevin böyük əminliyindən qaynaqlanan fikirlərlə ölkəmizin çağdaş enerji təhlükəsizliyi ilə bağlı təhlilimizi yekunlaşdırırıq: “Azərbaycan öz doğma torpağına, Qarabağ torpağına qayıdacaq. Bizim ərazi bütövlüyümüz tam bərpa ediləcək, necə ki, bu gün biz vaxtilə tərk edilmiş “Qarabağ” yatağına qayıdırıq, eyni qaydada biz doğma Qarabağ torpağımıza da qayıdacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***Ceyhun Rasimoğlu***

## Azərbaycan ən çox bu ölkələrə qaz ixrac edir



2020-ci ilin 7 ayı ərzində xaricə qaz satışı 7,7 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 16,7 faiz çoxdur. SİA xəbər verir ki, cari ilin yanvar-iyul aylarında 2019-cu ilin müvafiq dövrünə nisbətən Türkiyəyə 24 faiz çox, yəni 6,3 milyard kubmetr qaz ixrac edilib. Gürcüstana ixrac edilən qazın həcmi 1,4 milyard kubmetr olub. Qeyd edək ki, TANAP ilə Türkiyəyə bu müddətdə 2,4 milyard kubmetr qaz nəql olunub.

## Daha 3 KOB İnkişaf Mərkəzi sahibkarların xidmətinə veriləcək

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) başlıca fəaliyyət istiqamətlərindən biri də mikro, kiçik və orta sahibkarların bilik və innovasiyalara çıxışının genişləndirilməsidir. SİA xəbər verir ki, Bu məqsədlə yaxın günlərdə Bakı və Sumqayıt şəhərlərində, Yevlax rayonunda KOBİA-nın strukturuna daxil olan 3 yeni KOB inkişaf mərkəzi fəaliyyətə başlayacaq. Hazırda mərkəzlərin fəaliyyətinin təşkili istiqamətində müvafiq tədbirlər görülür. KOB inkişaf mərkəzlərində Bakı şəhəri, eləcə də Abşeron və Aran iqtisadi rayonları üzrə biznesə başlamaq istəyənlərə, mikro və kiçik sahibkarlıq subyektlərinə biznesyönümlü təlim və seminarların təşkili, məsləhət xidmətləri, təcrübə proqramlarında iştirak, məlumatlandırma və maarifləndirmə tədbirləri, biznes ideyaların mövcud maliyyə resurslarına yönləndirilməsi istiqamətlərində ödənişsiz dəstək və xidmətlər göstəriləcəkdir. Məlumat üçün qeyd edək ki, ilk KOB İnkişaf Mərkəzi Xaçmaz şəhərində yaradılıb. 2020-ci ilin fevral ayından fəaliyyət göstərən Xaçmaz KOB İnkişaf Mərkəzinin təlim və məsləhət xidmətlərindən 120-dən çox KOB subyekti yararlanıb. Mərkəzin əlaqələndirməsi ilə indiyədək 4 sahibkarın biznes ideyası maliyyələşdirilib, 4 yeni KOB subyektinin və 5 MMC-nin yaradılmasına dəstək göstərilib.



## 9 tondan çox narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidmətinin bütün sahələrində ardıcıl həyata keçirilən islahatların səmərəliliyi ilk növbədə xidməti göstəricilərdə öz əksini tapır. SİA-nın məlumatına görə, bunu Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev deyib. O bildirib ki, Dövlət Sərhəd Xidmətinin fəaliyyəti dövründə Azərbaycan sərhədçiləri tərəfindən 11 min 557 sərhəd pozucusu, 160 min 870 nəfər rejim pozucusu, 40 min 779 nəfər axtarışda olan şəxs saxlanılmış, təxmini dəyəri 196 milyon 815 min 551 manat olan qaçaqmalın, o cümlədən 9 ton 281 kq narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb:



“Bu illər ərzində Dövlət Sərhəd Xidməti tərəfindən Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilən 19 nəfər və əlaqədə şübhəli bilinən 93 nəfər Azərbaycan, 28 nəfər xarici vətəndaş aşkar olunmuş, terrorçuluğa qarşı mübarizə çərçivəsində 98 şəxs saxlanılmış, 409 nəfərin şəxsiyyəti müəyyən edilmişdir. Qanunsuz miqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 173 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilb”.

## Bu il Azərbaycanda istehsal edilən avtomobillərin sayı açıqlanıb



2020-ci ilin yanvar-iyul aylarında Azərbaycanda maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 183,1 milyon manatlıq məhsul istehsal edilib. SİA-nın məlumatına görə, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 92,5 faiz, maşın və avadanlıqların istehsalı 64,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 57,7 faiz artıb. Yanvar-iyul aylarında 1074 ədəd və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 230 ədəd az minik avtomobili istehsal olunub.

## Dünyada 770 mindən artıq insan COVID-19-un qurbanı olub

Dünya üzrə koronavirus infeksiyasına yoluxanların sayının 21 milyonu, ölənlərin sayının isə 773 min nəfəri ötdüyü açıqlanıb. AZƏRTAC xəbər verir ki, ümumilikdə dünya üzrə COVID-19-a yoluxanlardan 14 564 827 nəfəri sağalıb, 6 489 537 xəstənin müalicəsinin davam etdiyi bildirilib. Bununla da dünyada koronavirusa yoluxanların sayı 21 827 459 nəfərə çatıb. Pandemiya qurbanlarının ümumi sayı 773 095 nəfər təşkil edir.



# Müstəqil Azərbaycanın müstəqil LİDERİ



"Koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər bu müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər vaxtında görülmüş tədbirlərdir. Bu tədbirlər nəticəsində vəziyyət bu günə qədər nəzarət altındadır. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır. Bu müsbət dinamika deməyə əsas verir ki, biz koronavirus xəstəliyini bundan sonra da nəzarət altında saxlayacağıq". Azərbaycan Prezidenti İlham Əliyev bu fikirləri koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə çıxışı zamanı deyib. Bildirib ki, bu gün 46 xəstəxana ancaq koronavirus xəstələrinə xidmət göstərir. Onu da bildirməliyəm ki, bu 46 xəstəxananın 41-i son 17 il ərzində tikilib və ya əsaslı şəkildə təmir edilib, müasir avadanlıqlarla təchiz olunub.

**"Əgər biz vaxtında bu addımları atmasaydıq, bu gün çox böyük problemlərlə, faciəvi vəziyyətlə üz-üzə qala bilərdik"**

Budur, əsl iyasət. Əsl siyasət konkret real iş görməkdən ibarətdir. "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısı son 17 il prezidentlik fəaliyyəti illərində qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Məhz bu illər ərzində, insanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın, o cümlədən regionlarımızın siması yeniləşməkdədir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda, insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Hər bir Azərbaycan vətəndaşı bu inamla hər il daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Çünki ölkə Prezidenti İlham Əliyev hakimiyyətdə olduğu son 17 il müddətində daima xalqla birbaşa təmasda olub. İstər xarici siyasətlə bağlı fəaliyyətdə, istərsə də daxili idarəetmədə Prezident İlham Əliyev sadə vətəndaşlara söykənir: "Mən bütün azərbaycanlıların prezidentiyəm" şüarını gerçəyə çevirir.

Bütün bunlar, bir daha sübut edir ki, Azərbaycan dövləti və Prezidenti daim xalqının yanındadır və keçirilən müşavirələrdə də məmurları xalqla bir olmağa, xalqın dərd-səri ilə şərik olmağı, məmurların da bu tələbə tam işləri ilə cavab verməlÉrini tələb edir. Çünki Prezident İlham Əliyevin 17 illik Prezidentlik fəaliyyətində həyata keçirdiyi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Bu isə...

**Xalq-hakimiyyət birliyinin uğurlu nəticəsi...**

Çünki istənilən dövlətdə siyasi sabitliyi və təhlükəsizlik mühitini şərtləndirən həlledici amil Xalq-İqtidar birliyidir. Bu birlik təsadüfən, öz-özünə formalaşmır. Onun üçün əsas şərt xalqını arxasınca aparmağı bacaran güclü və xarizmalı lider amilinin olmasıdır. Elə bir lider ki, müstəqil siyasət aparmaq iqtidarında olsun. Elə bir lider ki, xalqı və dövlətinin milli maraqlarını bütün mənafelərin fövqünə yüksəltsin. Və öz əməlləri ilə xalqı və dövlətinin sonsuz sevgisini qazanmış lider,

qürurla deyərdim ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt Azərbaycan xalqının dövlət rəhbəridir. Çünki Prezident İlham Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyev müəyyən etdiyi siyasi kursa sadiqdir və son 17 il ərzində dünya səviyyəsində inkişaf etmiş ölkələr sırasına çıxarmışdır. Azərbaycanın imzası imzalar içərisində, səsi isə dünya meridianlarında daha ucadan eşidilməkdədir. Bu gün bütün dünyanı lərzəyə gətirən COVİD-19 pandemiyası ilə qlobal mübarizədə Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi səviyyəsində nümunəvi dövlətlər sırasında qeyd edilməsi bu reallığı təsdiqləyən faktordur. Məhz dövlət başçımızın avqustun 6-da Azərbaycanda koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirilən müşavirədə çıxışı zamanı da görülən işlərdən, ən əsas isə insanların sağlamlığının və təhlükəsizliyinin dövlətin əsas prioritet olduğunu bildirmişdir. Dövlət başçısı bildirmişdir ki, məhz vaxtında atılan uğurlu və düşünülmüş siyasətin nəticəsidir ki, Azrbacan nümunəvi ölkə kimi dəyərləndirilib. Pandemiya zamanı Prezidentin keçirdiyi müşavirələr, vətəndaşlara ayrılan sosial yardım, vergi güzəştləri, sahibkarlara dəstək, sosial həssas qruplara dəstək və atılan digər addımlar da Azərbaycan nümunəsinin başlıca göstəricisidir. Bütün bunlar isə "Xalq-İqtidar" - "Biz birlikdə güclüyük!" şüarlarının sözdə yox, əməldə görülən işlərin nəticəsidir.

Xüsusi karantin rejimi dövründə həyata keçirilmiş "Biz birlikdə güclüyük!" adlı sosial aksiya sayəsində aztəminatlı ailələrə 100 mindən çox ərzaq paketi paylandı. Aksiyada iştirak edənlərin sayı hər gün artır, həm dövlət, həm də özəl şirkətlər bu təşəbbüsə qoşulur. Həmçinin, Azərbaycanın nümunəvi ölkə kimi qəbul edilməsi də, məhz dövlət başçımızın düşünülmüş siyasətinin reallıqlarıdır. Eyni zamanda, Azərbaycan pandemiya dövründə beynəlxalq təşəbbüslərdən də bir addım geri çəkilmir. Dövlət başçımızın təşəbbüsü ilə aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təcili Zirvə toplantısının keçirilməsi, mayın 4-də isə Prezident İlham Əliyevin təşəbbüsü ilə "Biz COVID-19-nin əleyhinəyik" mövzusunda Qoşulmama Hərəkatının video konfransların keçirilməsi Azərbaycanın nümunəvi ölkə olduğunun göstəricisidir. Ən başlıca amil isə, cəmiyyətin Prezident ətrafında birləşməsi və ölkə rəhbərini dəstəkləməsi pandemiya üzərində qələbənin təmin edilməsinin reallığıdır. Bir sözlə, "Biz birlikdə güclüyük!" şüarı ilə pandemiyaya qarşı savaşan Azərbaycan görünməmiş nümunə yarada bilib. Bu nümunəni dövlət başçısının vətəndaşlarına həmişə olduğu kimi, bu gün də pandemiya dövründə göstərdiyi qayğı və diqqəti göz önündədir.

**"Heç bir sosial layihə ixtisar edilməyib"**

"Baxmayaraq ki, həm pandemiya, həm də neftin qiymətinin aşağı səviyyədə olması bizim gəlirlərimizə çox mənfi təsir göstərib, ancaq nəzərdə tutulmuş bir dənə də olsun sosial layihə yarımçıq qalmayıb, yaxud da ixtisar edilməyib". Bu sözləri Prezident İlham Əliyev ölkəmizdə koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə bağlı videoformatda keçirdiyi müşavirədə deyib.

Bildirib ki, bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq: "Bu il rekord sayda - 1500 şəhid ailəsi, Qarabağ müharibəsi əlili mənzillərlə təmin ediləcəkdir. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq. Yəni, bütövlükdə ən azı 9 minə yaxın ailə bu il dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Bütün bu mənzillər keyfiyyətli mənzillərdir, demək olar ki, onların hamısı yeni tikilmiş binalarda yerləşir. Beləliklə, əgər biz bir ailənin üzvlərini orta hesabla beş nəfər götürsək, deməli, bir il ərzində ölkəmizdə 45 min insan dövlət tərəfindən pulsuz, keyfiyyətli mənzillərlə təmin edilir. Mən tam əminliklə deyə bilərəm ki, adambaşına düşən saya görə bu, dünyada ən yüksək nailiyyətdir".

Həmçinin, ölkəmizdə iqtisadi və sosial məsələlər də öz həllini tapır. Bu dövrdə 5 milyona yaxın insan geniş sosial paketlə əhatə edildi. Dövlət sektorunda çalışan 900 min insanın böyük əksəriyyəti faktiki olaraq işləməsə də, dövlət tərəfindən əməkhaqqı alır. 760 min sahibkara lazımi maliyyə dəstəyi göstərildi və onların iş yerləri qorundu. Bundan əlavə, 600 min işsiz insan, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən və müvəqqəti olaraq öz işini itirən, aztəminatlı təbəqəyə aid olan insan dövlət tərəfindən qayğı ilə əhatə olunub. Onlara 190 manat həcmində müavinətin verilməsi buna sübutdur. Bu yardım davam etdirilməkdədir. Göründüyü kimi...

**Əsl siyasət konkret, real iş görməkdən ibarətdir**

Əsl siyasət konkret, real iş görməkdən ibarətdir. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq istərdim: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Məhz xalqımız öz lideri ilə fəxr edir və Ona arxalandığı üçün öz Prezidenti ətrafında daha da sıx birləşərək, ölkənin inkişafı və tərəqqisinə doğru inamla irəliləyir. Və ölkə Prezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər".

***ƏLİ HÜSEYNOV,***
***YAP Ağsu rayon təşkilatının sədri***

## Buraxılış imtahanlarının nəticələri ilə bağlı apelyasiya prosesi təşkil ediləcək



On birinci sinif şagirdləri üçün iyulun 29-30-da keçirilmiş buraxılış imtahanlarının nəticələri ilə bağlı müraciətlərə baxılması üçün Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən avqustun 24-dən etibarən onlayn ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apelyasiya prosesi təşkil ediləcək. Apelyasiya Komissiyasına müraciət etməzdən əvvəl şagirdlər DİM-in saytında, imtahan nəticələri ilə bağlı səhifədə öz nəticələri, cavab vərəqinin qrafik təsviri, hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları ilə tanış olmalıdırlar.

DİM-dən AZƏRTAC-a bildirilib ki, Apelyasiya Komissiyasına müraciət etmək istəyənlər avqustun 21-dən 23-dək Mərkəzin saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan apelyasiya üçün müraciət edə bilməyəcəklər. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir, həmin müraciət araşdırılmır və onun üçün apelyasiya təşkil olunmur. Apelyasiya müzakirəsində şagirdin iştirakı vacibdir. Şagird ilə yanaşı, valideynlərindən biri müzakirədə iştirak edə bilər. Bir şagirdin ərizəsi (müraciəti) üzrə ən çox 15 dəqiqə müzakirə aparıla bilər. Ayrılan vaxt bitdikdə, kənar şəxs müzakirəyə qoşulduqda və ya etik davranış qaydaları pozulduqda müzakirə prosesi dayandırılır.

Qeyd edək ki, 11-ci sinif şagirdləri üçün iyulun 29-30-da keçirilmiş buraxılış (o cümlədən əvvəlki illərin məzunları üçün qəbul) imtahanlarının nəticələri elan olunub.

## Azərbaycanda koronavirusa yoluxan və ölənlərin son statistikası



Azərbaycanda koronavirusa yoluxanların 56.2 faizi Bakının payına düşür. SİA-nın məlumatına görə, yoluxmanın 6.6 faizi Gəncə-Qazax, 15.9 faizi Abşeron, 10 faizi Aran zonası, 4.4 faizi isə Lənkəran şəhərində qeydə alınıb. Yoluxanların 0.8 faizi xaricdən gələnlərdir. Hazırda ölkə üzrə yoluxma hallarının 1.7 faizi Şəki-Zaqatala, 1.9 faizi Quba-Xaçmaz, 1 faizi Yuxarı Qarabağ bölgəsində, 1,7 faizi isə Dağlıq Şirvan ərazilərindədir. Naxçıvanda yoluxma 0,05 faizdir. Qeyd edək ki, ölkə ərazisində indiyə qədər 836 908 test aparılıb. Aktiv xəstə sayı 1 793 nəfərdir, onlardan 202 nəfər reanimasiyadadır, 31 nəfər isə süni tənəffüs aparatına qoşulub.

## Bu il 250-dək özünüməşğulluq proqramı iştirakçısına aktivlər verilib



Prezident İlham Əliyevin təşəbbüsünə uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində banklar tərəfindən özünüməşğulluq proqramına dəstəyin göstərilməsi işləri davam edir. Nazirlikdən SİA-ya verilən məlumata görə, bu il artıq 250-dək proqram iştirakçısına seçdikləri fəaliyyət sahəsi üzrə kiçik bizneslərini qurmaq üçün banklar tərəfindən mal və materiallar formasında aktivlər verilib. Proqramın icrasına dəstək işlərinə ölkədə fəaliyyət göstərən 21 bank qoşulub. Ümumilikdə əməkdaşlıq çərçivəsində respublika üzrə təlimləri uğurla başa vuran və biznes planlarını müdafiə etmiş 1000 nəfər proqram iştirakçısının cari ildə banklar tərəfindən aktivlərlə təmin edilməsi nəzərdə tutulub.

# "COVID-19" diaqnostikası necə aparılmalıdır?

*"Həkim məsləhəti" rubrikasında PZR laboratoriyanın həkim laborantı Səbinə İbrahimova sualını cavablandırıb*

***Pandemiya dövründə COVID-19 infeksiyasına yoluxmuş xəstələrin diaqnostikası,epidemiologiyası, kliniki xüsusiyyətləri, profilaktikası və müalicəsi çox vacibdir. Yeni koronavirus infeksiyasına yoluxmaya şübhəli bilinən insanlarda diaqnoz kliniki əlamətlərin, epidemoioloji anemnezin və müsbət laborator nəticələrin əsasında qoyulur. COVID-19 xəstəliyinin spesifik laborator diaqnostikası Polimeraz Zəncir Reaksiyası (PZR) üsulu ilə aparılır.***

Kliniki əlamətlərdən asılı olmadan, əgər PZR metodu vasitəsi ilə müsbət nəticə əldə olunursa bu SARS-CoV-2 RNT tərkibli virusun mövcud olduğunu göstərir və beləliklə insan-potensial infeksiya mənbəyi olub olmaması sualına cavab verir. Spesifik PZR diaqnostika fiziki müayinədən başlayır. Fiziki müayinə vasitəsilə yuxarı tənəffüs yollarının görünən selikli qişalarının müayinəsi, termometriya və xəstənin vəziyyətinin ağırlıq dərəcəsi təyin edilir.

Xəstənin laborator nəticəsinin keyfiyyətli olması nümunələrin düzgün yığılmasından, onların laboratoriyaya operativ çatdırılmasından və laborator testləşdirməyə qədər saxlanılmasından asılıdır. Müayinə materialları kliniki simptomların əmələ gəlməsindən 7 gündən gec olmayaraq yığılmalıdır. SARS-CoV-2 virusunun aşkarlanması






ilə bağlı aparılan əks transkripsiyalı PZR metodu virus infeksiyasının diaqnostikası üçün ən dəqiq və etibarlı üsuldur və insanda virusun çox az miqdarda olan genetik materialını (RNT) belə aşkar etməyə imkan verir.

Digər immunoferment analizi metodu Ig M anticisimlərin-orqanizmin virusa qarşı ilk immun reaksiyası zamanı ortaya çıxan və xəstəliyin davam etdiyi göstərən ən erkən anticisimlərdir. Ig G anticisimləri virusa yoluxmuş insanlarda sonra yaranır və uzun müddət qalır. Bu formalaşmış immuniteti və pasiyentin xəstələnib sağalmasını göstərir. COVİD-19-un düzgün və superetibarlı laborator diaqnostikası üçün üç növ laboratoriya analizi- PZR metodu, Ig M və Ig G anticisimlərin təyini aparılmalıdır.

Bu tədqiqatlar həkim tərəfindən digər diaqnostik metodlarla kompleks tətbiqdə aparılır. İmmunoglobulin M (Ig M) olması xəstənin koronavirus infeksiyasına yoluxduğunu göstərir. Bundan əlavə, PZR diaqnostikasının nəticəsi müsbət çıxırsa, pasiyentin COVİD-19 xəstəsi olduğuna 100% əmin oluruq. Qeyd edim ki, bu üç laboratoriya diaqnostikasının kombinasiyası 100% diaqnoz qoymağa imkan verir.

# "Kütləvi ibadətlərin təşkili zamanı virusa yoluxma hallarının artması ehtimalı daha çoxdur"



"Hər il Qurban, Ramazan bayramlarının, Məhərrəmlik ayının İslam dininin qaydalarına görə qeyd edilməsi ölkəmizdə dini etiqad azadlığının, mənəvi dəyərlərimizə bağlılığın nəticəsi olmaqla, inaclarımıza sadiqlik kimi də yaşadılır. Lakin reallıqdır ki, bütün sahələrdə problemlər yaradan, dini ayinlərin, mərasimlərin keçirilməsinə də təsir edən pandemiya şəraitində inanclar da dövrün tələblərinə uyğun həyata keçirilir. İnsanların qapalı məkanda kütləvi toplaşması ilə daha çox yoluxma hallarının baş verməməsi üçün yas mərasimlərinin daha az insanların iştirakı ilə keçirilməsi əhalinin sağlamlığı naminə tətbiq olunan məhdudiyyətlərdir. Bu cür profilaktik tədbirlərə yaxınlaşmaqda olan, İslam dininin müqəddəs tarixi günlərindən sayılan Məhərrəm ayında da əməl edilməlidir". SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, pandemiya ilə əlaqədar məscid və ziyarətgahlarda kütləvi ibadətlərin təşkili zamanı virusa yoluxma hallarının artması ehtimalı daha çoxdur: "Əlbəttə ki, sanitar-gigiyenik qaydalara əməl olunmasının vacibliyi, insanların sağlamlığının qorunması məqsədilə açıq və qapalı məkanlarda dini ayinlərin təşkili, kütləvi toplaşma yolverilməzdir. Hətta pandemiya səbəbindən Həcc ziyarətinin təxirə salınması virusa yoluxma hallarının qarşısının alınması və insanlara diqqətin nümunəsidir. Bu səbəbdən də Məhərrəmlik ayının daha çox kütləvi şəkildə qeyd olunan Aşura günündə əvvəlki illərdən fərqli olaraq bəzi ayinlərin keçirilməsinə məhdudiyyətlər nəzərdə tutulur. Çünki pandemiyaya görə təkcə Azərbaycanda deyil, bütün müsəlman ölkələrində həmin günün özünəməxsus ayinlərinin evlərdə təşkili daha məqsədəuyğun hesab edilir. Bütün bunlarla yanaşı Aşura mərasiminə uşaqların aparılması onların sağlamlığını təhlükə qarşısında qoyur. Çünki, həmin mərasimdə iştirak edən insanlardan kimsə infeksion xəstəliklərin daşıyıcısı ola bilər. Koronavirus, vərəm kimi təhlükəli xəstəliyin daşıyıcısı olan hər hansı bir şəxsin orada iştirakı onlarla başqa adamın potensial vərəm xəstəsi olmasına səbəb ola bilər. Hava-damcı yolu ilə yayılan bu xəstəliklər uşaqları daha tez yoluxdura bilir. Uşaqların orqanizmləri zəif və yenicə formalaşan olduğundan, onlar təhlükəli və güclü viruslara daha tez yoluxurlar".

Sədaqət Vəliyeva əlavə edib ki, İslam dininin əsas qayəsi insanları birliyə, həmrəyliyə dəvət etmək, mərhəmət göstərmək, xeyirxah əməllərə çağırışdır. Bu mənada, pandemiya dövründə Məhərrəm ayına xas inanclar fərqli yollarla yerinə yetiriləcək və Aşura günündə xəstələrə yardım məqsədilə Mərkəzi Qan Bankında qanvermə aksiyalarının keçirilməsi, xəstəlikdən əziyyət çəkənlərə həyat verilməsi Tanrı məqamında ən böyük savab, insanlıq, mərhəmətdir. Həmin gün kimsəsiz, aztəminatlı ailələrə yardım, valideyn himayəsindən məhrum uşaqlara nəvaziş göstərmək, uşaq evlərindəki körpələrə baş çəkmək insanlıq naminə edilən xeyirxahlıqdır.

# "Ermənistanın təhdidlərinə heç bir reaksiya verilmir"

"Rəsmi İrəvan nə danışdığını bilmir". Bunu SİA-ya verdiyi açıqlamasında Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova deyib. Partiya sədrinin sözlərinə görə, Ermənistanın məkirli işğalçı siyasətini və təhdidlərini hər kəs görür, amma, heç bir reaksiya verilmir: "Bunun səbəbi isə Ermənistanın hər kəs tərəfindən forpost və təhkimli dövlət statsusunda olmasını tanımasıdır. Yəni Ermənistan rəhbərliyinin sözlərinin heç bir hüquqi əsası yoxdur və bu rəhbərlik Rusiyaya güvənir. Çünki Rusiyanın mövcud geopolitik müstəvidə Cənubi Qafqazda Ermənistan kimi təhkimli dövləti itirmək istəmədiyinə əmindir. Yəni Rusiya birmənalı olaraq, Ermənistanı yox, Gümrünü itirmək istəmir. Tovuz hadisələri zamanı Rusiya izləyici pozisiyasına keçid aldı. Rəsmi İrəvan Rusiya tərəfindən yetərli dəstəyi görmədiyi halda, eyni zamanda Türkiyə Azərbaycan birliyini müşahidə etdiyi halda, Rusiyanı hərəkətə keçirmək üçün Ermənistanda Rusiya televiziya translyasiyasını dayandırdı. Bu, əslində rəsmi Moskvaya Gümrü mesajı idi. Bunun ardından isə biz Rusiyanın Qazaxıstan vasitəsilə Ermənistanı silahla təchiz etdiyini müşahidə etdik. Əslində Rusiya və Ermənistan mətbuatında yayımlanan yazılardan da görürürk ki, həm Rusiya, həm Ermənistan Türkiyə Azərbaycan birliyindən, eləcə də, Türkiyə qoşunlarının Qarabağa girəcəyi ehtimalından belə çox tədirgindirlər. Çünki, bu o deməkdir ki, artıq Dağlıq Qarabağ məsələsi daha böyük güclər arasında həll oluna bilər. Belə olan halda konkret olaraq uduzan və qələbə qazanan tərəf bəlli olacaq. Hər baxımdan Rusiyanın uduzduqları burada daha çoxdur. Ona görə də, hazırda Rusiya maşa Ermənistan vasitəsi ilə Azərbaycana əzələ nümayiş etdirmək adına təhditlər yağdırmağa başlayıb. Hesab edirəm, burada Azərbaycanın siyasi mövqeyi və iradəsi də, sınanacaq. Çünki, böyük siyasi manevrlərdə böyük güclərin savaş plasdarmına çevrilmək Azərbaycan üçün təhlükəli ola bilər. Digər tərəfdən Tovuz hadisələri zamanı, Ermənistana silah təchizatı edən və ya silah təchizatı etmək üçün ərazilərindən istifadə edilən qonşu dövlətlərlə, yəni Gürcüstan, İran və Qazaxıstanla olan münasibətləri də diqqətdən kənar qoymamalıyıq. Yəni, hesab edirəm ki, Ermənistan kimi maşa bir dövlətin təhditlərindən daha çox qonşu dövlətlərin Azərbaycana qarşı olan münasibətlərinə diqqət yetirilməlidir".

Daha sonra, partiya sədri Əsli Kazımova, Ermənistanın təhdidlərinə rəğmən ATƏT-in Minsk Qrupunun susqunluq nümayiş etdirməsinə də, münasibət bildirib: "ATƏT-in əsil simasını Tovuz eskalasiyası zamanı müşahidə etdik. ATƏT yağışdan sonra çıxan göbələyə bənzəyir. Savaş bitir sonra monitorinqə başlayır. Kimə lazımdır belə təşkilatın monitorinqi? Axı 30 ildə bu təşkilat nə etdi ki, indi nə edə? ATƏT-in Misnk Qrupu da, hesab edirəm Rusiyanın diktəsi ilə hərəkət edən bir təşkilat formatında çalışır. Ona görə də, Azərbaycan münaqişə tərəfi olaraq, ATƏT-in Minsk qrupundan ya imtina etməlidir, ya da Türkiyənin də, iştirakı ilə yeni tərkibdə Minsk Qrupunun təşkili üçün təklif irəli sürməlidir".

***İnam Hacıyev***



İLHAM

# "Başqalarına ziyan vermədən yaşamağı öyrənməliyik"

***Yaşadığımız dünyanın qəbul edilən və buna görə də, dəyərləndirilən müsbət özəllikləri ondan ibarətdir ki, normal dövlətlər insanlığa mühüm önəm verir və hakimiyyətlər vətəndaşlarının daha yaxşı yaşaması, təhlükəsiz ömür sürməsi, sosial-iqtisadi cəhətdən təmin olunması, hüquqi, demokratik imkanlardan bəhrələnməsi üçün hər cür şəraitlər yaradır. Xoş millətimizin halına ki, ölkəmizdə də, müasir dövrün demokratik tələbləri ən yüksək səviyyədə həyata keçirilməkdədir. Bu gün birmənalı fakt ondan ibarətdir ki, insanlar ölkəmizin yeralıtı və yerüstü sərvətlərindən istədiyi formada bəhrələnə bilir. Konstitusiyanın 1-ci maddəsində qeyd edildiyi kimi hakimiyyətin mənbəyi xalqa məxsusdur.***

Azərbaycan xalqı hakimiyyətin formalaşmasında yaxından iştirak edir və bu səbəbdən də xalq-hakimiyyət birliyi möhkəm əsaslara malikdir. Düzdür, bəzi hallarda insanlarımız bürokratik əngəllərlə, məmur özbaşnalığı ilə üzləşirlər. Xırdada olsa qüsurlar, çatışmazlıqlar da ara-sıra gözə dəyir. Ancaq bütün bu hallar ümumi cəmiyyət həyatının həlli mümkünsüz görünən ağrılı problemi kimi qiymətləndirilə bilməz. Çünki, Azərbaycanda ciddi və oturuşmuş dövlət aparatı mövcuddur ki, bu da imkan verir ki, problemlər ciddi nəticələrə gətirib çıxarmadan həll edilsin. Son vaxtlar ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar, kadr dəyişiklikləri dövlət quruculuğunun və idarəetmənin yeni dövrün tələbinə uyğun atılan addımı kimi qiymətləndirmək olar. Eləcədə korrupsiyaya, rüşvətxorluğa yol verən icra hakimiyyəti başçılarının, bəzi nazirlik əməkdaşlarının həbs edilməsi cəmiyyətin inkişafına mane olan yaraların təmizlənməsi istiqamətində sərt tədbirlərin daha bir nümunəsidir. Yəni, dövlət vətəndaşların yaşayışına və təhlükəsizliyinə mane olan hər bir problemi həll etməyə qadirdir. Yetər ki, vətəndaş məsuliyyəti olsun və qəbul olunan qanunlara, qaydalara riayyət etsin.

Ancaq görünən odur ki, bəzən insanlar qanunlara əməl etmədikləri kimi, qaydalara da riayət etmirlər. Məsləhətləri, tövsiyyələri də qulaqardına vururlar. Elə uzağa getməyək, koronavirusun ölkəmizə ayaq açmağa başladığı ilkin dövrdə insanların məsuliyyətsizliyi, qaydalara əməl etməmələri səbəbindən yoluxanların sayı artdı, ölüm halları narahatedici mərhələyə yüksəldi. Bir ara cərimələrin artırılması, həbs qəti imkan tədbirlərinin sayının çoxalması da bir işə yaramadı. İnsanlara koronavirusdan qorunmalarının vacibliyini məsləhət bilirdinsə, səni məsləhətinə görə peşman edirdilər. Hərənin ağzından bir avaz gəlirdi. Bir qismi "Bu ABŞ-ın, Avropanın hoqqasıdır" deyirdisə, başqa bir qismi də "siyasi oyundur, baş qoşmağa, oyuncağa çevrilməyə dəyməz"deyirdilər. Eləlləridə vardı ki, bir qədərdə uzağa gedərək, virusun bialoji silah olduğunu və insanları bir növ manqutlaşdırmağa hesablandığını bildirdilər. Haqlı olduqlarını sübut etmək üçün sosial şəbəkələrdə vidiolar, xarici mətbuatdan əldə etdikləri statusları da paylaşırdılar. Nəhayət insanlar yaxınlarının bu virusdan əziyyət çəkdiklərini gördüklərindən və bununla paralel olaraq dövlətin sərt karantin qaydalarını tətbiq etməsi nəticəsində koronavirusu lokallaşdırmaq mümkün oldu. Artıq müsbət dinamika müşahidə olunmaqdadır. Lazımdır ki, bu vəziyyəti saxlamaq və koronavirusun tamamilə sıradan çıxarılmasınanail olaq. Bunun üçün maskadan istifadə edilməli və sosial məsafə qaydalarına riayət olunmalıdır.

Nəzərə almaq lazımdır ki, bir nəfərin məsuliyyətsizliyi səbəbindən onlarla insan əziyyət çəkə, ziyan görə bilər. Avstriya psixoloqu, psixoanalisti Ziqmund Freyd deyirdi ki, "bu gözəl həyat təkcə bizim deyil. Bu həqiqəti anlayıb başqalarına ziyan vermədən yaşamağı öyrənməliyik". Həm də, "Hamı bir nəfər üçün, bir nəfər hamı üçün" tezisinin reallaşmasına çalışmalıyıq. Məhz bu halda, nəinki, pandemiyanı məhv etmək olar, eləcədə qarşıda dayanan istənilən maneəni keçmək mümkündür.

# BakuBus-un problemləri - BNA onları nə zaman aradan qaldıracaq?

*Yaxud, sərnişinlər əvvəlki komfortu və rahatlığı hiss etmirlər*

***Hər gün səhər saatlarında jurnalistlər binasındakı mənzilimdən çıxıb, ictimai nəqliyyatla, lap dəqiq desəm, BakuBus-a məxsus 125 saylı avtobusla işə gedirəm. Əslində, barəsində söhbət açacağım mövzu yalnız mənə deyil, eləcə də paytaxtın digər sakinlərinə aiddir.***





Aiddir ona görə ki, əvvəl-əvvəl hər birimizin sevincinə səbəb olan və xidmətinə görə seçilən "qırmızı avtobuslar" rahatlığına, komfortuna və s. üstün xüsusiyyətlərinə görə daha əvvəlki vəziyyətin üzərindən çalın-çarpaz xətlər çəkib. Daha heç kim bir tərəfi əyilmiş və qəza şəraitində idarə edilən, yol-nəqliyyat qaydalarını pozan, kobud sürücülərin qoşduqları və baş aparan ara musiqilərindən, addımbaşı qanunsuz dayanacaqlardan bezərək, təngə gəlmir. BakuBus-larda tətbiq edilən növbəti qaydalar da sərnişinlərin marağına uyğun idi. Bakukartlar vasitəsi ilə öndən minib, orta və arxa qapılardan enmək, əlil və uşaq arabalarının avtobuslara qaldırılması üçün müvafiq qurğunun istifadəsi, avtobusların intervallarının qısaldılması və dayanacaqlara vaxtında çatması, dayanacaqlarda quraşdırılmış ekranlarda marşrut xəttinin göstərilməsi, növbəti avtobusun neçə dəqiqədən sonra dayanacağa çatması barədə məlumat və s. kimi məsələr də buna sübutdur. Həmin vaxtlar düşünürdük ki, artıq paytaxt sakinlərinin yerdə qalan problemlər də aradan qaldırıldı, fəqət...

### Nəzərə alarsaq ki, həmin ərəfədə işə gecikmə və s. poblemlər yaşanır, bu zaman əlavə şərhə də ehtiyac qalmır

Daha bir fakt budur ki, BakuBusun əvvəl-əvvəl tətbiq etdiyi bir sıra ənənələri artıq yoxa çıxmağa başlayıb. İntervaldan başlayaraq, dayanacaqlardakı problemlər yavaş-yavaş vətəndaş narazılığını artırmaqdadır. Hətta bəzən həmin problemlər nəticəsində vətəndaşlar arasında qarşıdurmalar yaşanır, sürücülər isə necə deyərlər nə eşidir, nə də görürlər. Sanki bir robot kimi pərçimləniblər sükan arxasına və ara-sıra mikrofon vasitəsi ilə "sıxlaşın" komandasını verməklə məşğuldurlar...

Məsələ ondadır ki, mənim sərnişin olaraq istifadə etdiyim 125 saylı marşrut xəttindəki avtobuslar adi intervallara belə əməl etmirlər. Onlar ya ard-arda gəlir, ya da bir avtobus getdikdən sonra növbəti avtobusu az qala 15-20 dəqiqə gözləməli olursan. Nəzərə alarsaq ki, həmin ərəfədə işə gecikmə və s. poblemlər yaşanır, bu zaman əlavə şərhə də ehtiyac qalmır.

El arasında "basabas", yəni insan sıxlığının olması faktı demək olar ki, həllolunmaz problemə çevrilib və BakuBus rəhbərliyi, eləcə də Bakı Nəqliyyat Agentliyi (BNA) günün pik saatlarında avtobus saylarının artırıldığını desələr də, bu fikirlər yalnız sözdə qalır, əməldə isə təəssüf ki, heç nə görünmür. İnsanların avtobuslarda sıx şəkildə gedib-gəlmələri, bəzi insanların isə öndən minib arxaya keçməmələri, bəzi sürücülərin isə bu məsələni ümumiyyətlə yerindəcə tənzimləməmələri onsuz da işə gedən və işdən qayıdan sərnişinlərin ciddi narazılıqlarına səbəb olmaqdadır.

### Pandemiya zamanı avtobuslardakı sıxlıq aradan qaldırılmır, ancaq heç kim virusa yoluxmaq istəyində də deyil

Təəssüf ki, bu məsələ özünü pandemiya zamanında da göstərməkdədir. Bəllidir ki, dövlət koronavirus pandemiyası başlayan gündən vətəndaşların sağlamlıqlarının mühafizəsinə biganə qalmadı və əlində olan bütün imkanlardan istifadə etdi, bu gün də etməkdədir. Virus infeksiyasının gah artması, gah da azalmasına baxmayaraq, insanlar artıq bu məsələyə ciddi yanaşırlar və əlbəttə ki, heç kim yoluxmaq, ya da yoluxmasını ailəsinə keçirmək istəyində, niyyətində də deyil. Üstəlik avtobusların ünvanlarına gec gəlmələrinin sıxlıq yaratması, hətta bir çox sərnişinlərin avtobuslara minə bilməməsi problemləri qalmaqda, artmaqda davam edir. Əlavə də virusa yoluxma ehtimalı demək olar ki, hər zaman pik nöqtədədir. Avtobusların əksəriyyətində dezinfeksiyaedici məhlullar bitərkən, yeniləri ilə əvəzlənmir. Bax belə vəziyyətdə BakuBuslardan istifadə edən sərnişinlər hər gün eyni vəziyyəti yaşamaqdadırlar. BakuBus isə "kifayət qədər ehtiyat avtobuslarımız var və onları əlavə olaraq xətlərə buraxırıq" kimi açıqlamaları sadəcə və sadəcə sözdədir. İnanmırlarsa, bir gün bizimlə səhər saatlarında bir neçə dayanacaqlı səfər edib, mövcud problemləri öz gözləri ilə görsünlər.

Təəssüf ki, BNA və BakuBus rəhbərliyi ilə əlaqə yaratmağa imkanımız olmadı, amma buna baxmayaraq, mövzunu gündəmdə saxlamaqla yanaşı, onların da fikir və rəylərini öyrənmək bizim üçün xoş olardı. Çünki içi mənqarışıq, BakuBusdan istifadə edən bir çox vətəndaşlarımız yavaş-yavaç artan və həll olunmayan problemlərin aradan qaldırılmasını gösləyirlər, üstəlik qarşıdan soyuq havalar da gəlməkdədir...

**R. RƏSULOV**

***P.S. Burada sadəcə BakuBusun bir marşrut xətti ətrafında mövcud problemlərdən bəhs olundu, görəsən digər xətlərdə vəziyyət nə yerdədi***

# Əlişkanın belarus çastuşkaları

*Yaxud, "inqilab"-zad bunlarlıq deyil...*

Son günlər "Milli Şura"-AXCP cütlüyü yenidən əvvəlkilər tək həvəsə gəlib, "inqilab" xülyalarına dalmağa başlayıblar. Lap bir zamanlar Gürcüstanda, Ukraynada, Ermənistanda olduğu kimi, indi də Belorusda baş verən hadisələri dərhal öz təbirlərincə "azərbaycanlaşdırır", bizə heç bir aidiyyatı olmayan və tamamilə fərqli siyasi baxışları olan hər hansı olayın guya burada da baş verəcəyi ətrafında təlxəklik sərgiləyirlər. Daha dəqiq desək, Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Qənimət Zahid, Sevinc Osmanqızı və daha digərləri vurha-vurla ictimai rəyə belarus çastuşkalarını sırımağa cəhdlər göstərirlər.









UNO humanoidləri, heyvanlar və qəribə məxluqlar...

Xüsusilə də AXCP sədri "Osmanqızı tv"də, "Azərbaycan saatı"nda, "facebook" səhifəsində Belarusdakı kirli siyasi oyunlardan cuşa gələrək özünə olan (digərləri onu maraqlandırmır əslində-R.N.) "dəstəklərdən" xırdalayır. Amma həmin "dəstəklərin" ona kimlər tərəfindən verildiyinə diqqət yetirdikdə, bu adamın həqiqətən də nə qədər kəmsavad və hörmətsiz biri olduğunu daha dərindən dərk edirsən. Sosial şəbəkələrdə Ə.Kərimlinin kimsəyə lazım olmayan tullantı fikirlərinə "dəstək" verənlərin bir çoxunun adları nəinki milli, heç insani keyfiyyətlərə belə aid deyilmiş. Adam lap matü-məəttəl qalır ki, əcəba, bunlar kimlərdir? Yoxsa Ə.Kərimliyə dəstəyi verənlər heç yer adamları deyil? Bəlkə UNO humanoidləri və s. bizə bəlli olmayan canlılardır?

Misal üçün, birinci şəkildə onun YouTube kanalındakı müsahibəsi görünür. Onu dəstəkləyən və rəy yazanların adlarına nəzər salarkən isə...

Mərhum Müəmmar Qəddafi o biri dünyadan AXCP-"Milli Şura" cütlüyünə "dəstək" göstərirmiş...

Və ya növbəti şəkillərdə onun Facebook-dakı eyni videosunu bəyənənlərin, rəy yazanların "nikneym"lərinə baxarkən, yenə də eyni düşüncələrə dalırsan ki, yox, Ə.Kərimliyə dəstək göstərənlərin ümumiyyətlə adam-zad cinsinə heç bir dəxilləri-filanları yox imiş. Gəlin bir yerdə o adları nəzərdən keçirək:

"Alo Telekom", "Baba Telekom", "Mexanik Lombo", "Qoca qartal", "Nu Ko", "Ema Geya" (?!) və s. Hətta, Əli Kərimlini bəyənənlərin sırasında "Müəmmar Qəddafi" də var ki, yəqin o biri dünyadan AXCP və "Milli Şura"nın belorus çastuşkalarını bəyənir, üstəlik dəstək də göstərir.

Mən hələ "Boz qurd", "Sarı tülkü", "Ağ çaqqal" və başqalarını demirəm. Kənardan baxan elə sanar ki, Ə.Kərimli zoomüxalifətçiliklə də məşğuldur və heyvanlardan birmənalı dəstək almağı da bacarırmış.

Bir sözlə, saxta insanlar, trollar və daha nələr və kimlər. Ə.Kərimli isə "Milli Şura"dakı yandaşları ilə əməlli-başlı çastuşkalara keçib, hətta elə çastuşkalar deyirlər ki, belə getsə özlərinə qrup yaradıb orda-burda konsertlər də təşkil edəcəklər. Təki belə olsun, çünki "inqilab"- zad bunlarlıq deyil...

***Rövşən NURƏDDİNOĞLU***

# Prokurorluq Abşeronda baş vermis insidentlə bağlı məlumat yaydı



Avqustun 18-də saat 14 radələrində rayon ərazisində inşa olunan hündürmərtəbəli yaşayış binasından ustanın yıxılaraq aldığı xəsarətlərdən ölməsi barədə Abşeron rayon prokurorluğuna məlumat daxil olub. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilib.

İlkin araşdırmalarla müəyyən olunmuşdur ki, həmin gün saat 13 radələrində 1992-ci il təvəllüdlü Hüseynov Savalan İmamverdi oğlu "Diadem" MMC tərəfindən rayonun "Stansiya Sumqayıt" adlı yaşayış massivində inşa olunan hündürmərtəbəli yaşayış binasının 7-ci mərtəbəsində suvaq işləri görərkən yıxılaraq aldığı xəsarətlərdən ölüb.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 222.3-cü (tikinti, mədən işlərinin və sair işlərin aparılmasının təhlükəsizlik qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, o cümlədən zəruri ekspertizalar təyin olunub. Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

# Erməni xalqının qorxulu kabusu...

## Paşinyanın BBC-yə müsahibəsində bunu bir daha göstərdi

***Ermənistanın baş naziri Nikol Paşinyan, hakimiyyətdə olduğu bu iki ildən də çox müddətdə, həqiqətən də erməni xalqının qorxulu kabusuna çevrilib. Əgər Serj Sarkisyanın 10 illik prezidentliyi Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olundusa, bu kabusu indi də Nikol Paşinyan yaradır. Ermənistanla bağlı proqnozlar özünü tam doğrultdu. Bu belə də olmalı idi. Çünki istər Paşinyan, istərsə də Sarkisyan eyni düşüncəyə malik olan Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunub, olunacaq. Və bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyanın BBC-yə verdiyi müsahibə zamanı səsləndirdiyi fikirlər ona xalqı ilə ciddi problemlər yaradıb. Çünki dedikləri ilə əməlləri üst-üstə düşmür.***

Paşinyan müsahibəsində seçkilər zamanı Dağlıq Qarabağ münaqişəsi barədə sülhə dair verdiyi vədlərə əməl etmədiyi faktıyla üzüzə qoyuldu. Həmçinin, bu gün iqtisadi problemlər məngənəsində boğulan Ermənistanda iqtisadi problemlər daha da artaraq pik nöqtəsinə çatıb. Ən əsas problem isə, bütün bəşəriyyəti bürüyən "COVID-19"la mübarizəsdə də Ermənistan daha ciddi uğursuzluqlar əldə edib. Bütün bu problemlərlə növbəti kabus isə iyulun 12-də Paşinyanın Tovuzda qəflətən Azərbaycana qarşı təxribatı idi. Hakimiyyətə gəlməklə Paşinyan sərsəm bəyanatları ilə elə ilk gündən Rusiya ilə Ermənistan arasında gərginlik yaratdı. Siyasətdən bixəbər olan küçə "demokrat" Paşinyan elə zənn etdi ki, təxribat törətməklə hər şeyə nail ola biləcək. Alınmayanda başladı Rusiyanın ünvanına sərsəm bəyanatlar verməyə. Nəticə nə oldu. Elə iyulun 12-də qəflətən Azərbaycan sərhədlərini pozaraq Tovuz istiqamətində təxribat törətmək istədi. Nəticədə də güclü Azərbaycan Ordusu və əzmkar əsgərlərimizin rəşadəti nəticəsində erməni dığalarını yerində otuzdurdu. Bax, budur, Paşinyanın "siyasəti".

Kimdir? Nədir? Ermənistan

Bu danılmaz faktordur ki, Ermənistan zaman-zaman sülh danışıqlarından yayınmaq üçün cəbhədə təxribatlar törədib. Son hadisələr isə birbaşa Ermənistanın daxilindəki ziddiyyətlərlə bağlıdır. Bu gün bir tərəfdən Ermənistandan daxili siyasi çəkişmələr pik həddə çatıb. Digər tərəfdən Paşinyan hökuməti koronavirusun sürətlə yayılmasının qarşısını heç cür ala bilmədiyinə görə daxili təzyiq və qınaqla üzə-üzə qalıb. Buna görə Ermənistan iqtidarı cəbhədə təxribatlar törədərək diqqəti daxili problem və ziddiyyətlərdən yayındırmaq yolu tutub. Bu işğalçı dövlətin köhnə oyunlarından biridir. Əsas olan odur ki, hər belə təxribat Ermənistanın işğalçılıq siyasətinin ifşasını sürətləndirir, Azərbaycanın öz torpaqlarını azad etmək üçün siyasi və hüquqi baxımdan mövqelərini möhkəmləndirir. Tarixi başdan-başa saxtakarlıqlardan, xalqımıza qarşı soyqırımlardan, quldurluqdan ibarət olan cinayətkarlar, oğrular, saxta demokrat cildinə girmiş diktatorlar ölkəsi hər addımı ilə öz sonunu yaxınlaşdırır. Elə Nikol Paşinyanın BBC-nin "HARDtalk" proqramına verdiyi müsahibəni izlədim. Qeyd edim ki, müsahibəni izləməklə bir daha şahid olursan ki, Ermənistanın baş naziri Paşinyan siyasi lider olaraq, acizanə və rəzil duruma düşməsi bir daha onun savadsızlığını göstərir.




### Faktları əsaslanmayan Paşinyanın xarici siyasəti...

Danılmaz faktordur ki, tarixi saxtalaşdırmaq olmaz. Lakin Paşinyan bu iki ildən çox hakimiyyətdə olduğu müddətdə keçirilən bütün görüşlərində, verdiyi müsahibəərində həmişə saxta faktlarla çıxış edib. Bu dəfə də eyni hərəkət etdi. Paşinyanın BBC-nin "HARDtalk" proqramına verdiyi müsahibə zamanı, məhz aparıcının "Ermənistan ordusu tərəfindən Dağlıq Qarabağda törədilmiş hərbi cinayətlərin müqabilində üzr istəmək niyyətiniz varmı" sualına konkret cavab ala bilməməsi və "aydındır, sizin üzr istəmək niyyətiniz yoxdur" deməklə sualını yekunlaşdırması, rəsmi Yerevanın nə əvvəllər, nə də sonralar problemin həllində konstruktiv mövqe bildirmədiyinin sübutudur ki, aparıcı sualını təkidlə təkrarlayaraq, baş nazirdən rasional açıqlama ala bilmədi.

Ən maraqlı məqam isə, jurnalist S.Sakur Paşinyana iki ölkə arasında sülh danışıqlaroı ilə suala cavab idi. "Siz hakimiyyətə gələndə Azərbaycanla sülh üçün cığırın tapılacağı vədini vermişdiniz, halbuki ötən ay yeni döyüşlər, yeni münaqişə, hər iki tərəfdən hərbçilərin həlak olmasını gördük. Sanki Ermənistan əvvəlki təcrübəsini davam etdirir və vəd edilən dəyişiklik baş vermir?" suala yenə də Paşinyan ənənəvi saxta üsulu ilə cavab verməyə çalışdı. Amma onun bu cəhdi də iflasa uğradı. Çünki S.Sakur onun üzünə "Sizin iddia etdiyiniz minillik tarixinizə girməyə niyyətimiz yoxdur. Bizim məqsədimiz hazırkı reallıqlara baxmaqdır. BMT-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən dərhal çıxarılmasını tələb edən qətnamələr var. Beynəlxalq hüquq çərçivəsində Ermənistan silahlı qüvvələri işğalçı ordudur və siz Dağlıq Qarabağa girərək o ərazinin sizin olduğunu iddia etməyə çalışırsız. Siz açıq-aşkar sülhpərvər deyilsiz" ittihamını vurdu.

Göründüyü kimi, dalana aparan yol bir daha göstərdi ki, Azərbaycan haqq yolundadır, Azərbaycan Prezidenti İlham Əliyevin siyasəti qarşısında duruş gətirə bilməyib, bundan sonra da gətirə bilməyəcəklər.

"Lragir.am" yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev siyasəti qarşısında Ermənistannı baş naziri Nikol Paşinyanını duruş gətirə bilməməsi real faktordur. Baş verənlərə diqqət yetirmək kifayətdir. Ekspertlər bildirirlər ki, Paşinyanın ittihamlara vermək istədiyi cavablar məntiqsiz və əlaqəsiz idi. Və Paşinyanın BBC-yə müsahibəsi ilə Ermənistanın işğalçı siyasətdən əl çəkməməsi bütün dünyaya bəlli olmaqla yanaşı, həm də Paşinyanın xarici siyasət sahəsində naşı olduğunu bəlli etdi.

### Qaqik Hambaryan: "Paşinyan növbəti dəfə sübut etdi ki, heç bir biliyə sahib deyil"

Politoloq Qaqik Hambaryan bu xüsusda bildirir: "Ermənistan baş naziri Nikol Paşinyanın Britaniyanın BBC telekanalının məşhur "HARDtalk" verilişinə müsahibəsi növbəti dəfə sübut etdi ki, Nikol heç bir mövzu ilə bağlı dərin məlumatlandırılmış deyil, biliyə sahib deyil. Bundan başqa, heç bir ələqəyə malik olmadığını özünə aid etməkdə tərəddüd etmir, həyata keçirmədiyi və uğursuz vədlərini "unudur". Məsələn, Nikol müsahibə zamanı Qarabağdakı rejimi danışıqlar prosesinə daxil etmək barədə uğursuz planına tamamilə toxunmadı. Çünki bu zaman onu daha çətin suallar gözlədiyini başa düşdü və bundan qorxdu. Amma buna qədər dedikləri də özünü biabırçı duruma salmasına yetdi".

Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyan da müsahibəyə görə Paşinyanı sərt tənqid edənlər sırasındadır: "Nikolun BBC-yə verdiyi müsahibəsindən uzun-uzun yazmayacam. Dözülməz dərəcədə populist olduğunda və bu, ölkə daxilində hələ bir formada işləyəndə xaric üçün başqa şey fikirləş. Çünki beynəlxalq platformalarda sənin populizmin faciəyə çevrilir. Özündən başqa, ölkəni də pis vəziyyətdə qoyursan".

Digər erməni siyasətçisi Mihran Hakobyan da Paşinyanın müsahibə nəticəsində Ermənistana ciddi zərbə vurduğu qənaətindədir: "BBC-nin "HARDtalk" formatı çox vacib xüsusiyyətə malikdir: məhz başlanğıcdan xəbərdarlıq edirlər ki, ağır və əlverişsiz suallar olacaq. Paşinyan isə bunlara hazırlaşmamışdı. Yaxşı, ölkəni bu qədər sevməmək olar? Həmvətənlərə bu qədər nifrət etmək olarmı ki, bu adam hamını utancdan kədərlənməyə məcbur edir? Niyə, xalqımızın hansı günahına görə bu adam ingilisdilli auditoriya qarşısında bilmədiyi dildə özünü alçaltmağa razı oldu.

### Rasim Quliyev: "Paşinyan yalnız Ermənistan ictimai rəyində deyil, eləcə də bütün dünyada rəzil və rüsvay oldu"

Bu rüsvayçı müsahibə bir daha Paşinyanın nə dərəcədə savadsız, səriştəsiz, xəyalpərəst "siyasətçi" olduğunu göstərdi. Paşinyanın belə rəzil vəziyyətə düşməsində başlıca rolu müxbirin ədalətli mövqeyi, yoxsa erməni baş nazirin arqumentsizliyi oynadı? "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev açıqlamasında bildirib ki, həmin jurnalistin simasında onun bütün savadlı, cəsarətli jurnalistlərə hörməti artıb: "Jurnalist çox hazırlıqlı idi. İkincisi, həmin jurnalist peşə fəaliyyətinə bəslədiyi tələbkarlığı, hörməti ortaya qoydu. Hiss olundu ki, Ermənistanın bölgədə yaratdığı problemin kökünü hətta Paşinyanın özündən belə yaxşı bilir. Bu da Ermənistanın baş nazirini mat vəziyyətinə salmaqla nəticələndi. Həmin televiziyanın nüfuzu elədir ki, Paşinyan yalnız Ermənistan ictimai rəyində deyil, eləcə də bütün dünyada rəzil və rüsvay oldu. İstənilən qələbənin qazanılması gərgin əməkdən keçir. Həmin jurnalist bu əziyyəti çəkmişdi. Bununla yanaşı, Ermənistan tərəfinin arqumentsizliyi də burada mühüm rol oynadı. Ermənistan Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsində baş verən işğal faktoruna heç cür haqq qazandıra bilməz. Ermənistan ölkə olaraq Azərbaycanın Dağlıq Qarabağdan kənarda olan 7 rayonunu işğal edib. Bu bütün beynəlxalq qətnamələrə, hüquqa ziddir. Paşinyanın yerində kim olsaydı belə, bunun qanunilyini əsaslandıra bilməzdi. Paşinyanın şəxsi göstəriciləri də çox aşağıdır. Hakimiyyətə küçədən gələn bu adam siyasəti diletantcasına bilir. Müsahibənin gedişi zamanı istər onun xarici dili bilmə səviyyəsi, istərsə də suallara verdiyi cavablardakı ritorikadan hiss edildi ki, Paşinyan həmin "dueldən" məğlub ayrıldı. Hakimiyyətə gəldiyi qısa vaxt ərzində onda dəyişən yalnız zahiri görkəmi və varidat əldə etməsi olub. Burada başqa bir detal da üzə çıxdı. Bilirsiniz ki, Paşinyan da jurnalistdi. O, iki jurnalist arasındakı polemikada belə uduzan tərəf oldu. Bununla da sübut etdi ki, heç jurnalist kimi də təcrübə yığa bilməyib. Hazırlıqlı jurnalist olsaydı, ən azından vəziyyətdən çıxış yolu tapa bilərdi. Bilirsiniz, istənilən polemikada arqumentləri doğruya, haqqa söykənən adam qalib olur. Paşinyan yalan danışdığı üçün aqibəti bundan artıq olmamalıydı".

Bu məqam isə Paşinyanın reytinqi üçün növbəti zərbə olacağı labüddür. Çıxış yolu axtarışında görəsən bu rəzillikdən sonra Paşinyan nə edəcək?. Bunu isə zaman göstərəcək. Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, görünür xalqı onu elə gəldiyi küçəyə də atacaqlar. Necə deyərlər, hayla gələn, vayla gedəcək. Artıq bu faktın gerçəkliyi göz önündədir.

**A.SƏMƏDOVA**

### "Paşinyanın siyasi arenada günləri daralır"



"Paşinyan BBC müxbirinin suallarına cavab verərək həm özünü biyabır etdi, həm Ermənistan hakimiyyətini, həm də öz ölkəsini. Çünki o cür cavab verməkdənsə, ümumiyyətlə, müxbirlə görüşməmək daha əlverişli olardı Paşinyan üçün". Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib. Politoloqun sözlərinə görə, müsahibə onu da göstərdi ki, BBC-nin müxbirinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən xəbəri daha çoxdur, nəyinki, Paşinyanın: "Çox sərt və konkret suallara Paşinyan sadəcə olaraq suallardan yayınmaq, sərsəm fikirlər bəyan etməklə məsələdən xəbərsiz olduğunu bir daha sübut etmiş oldu. Paşinyana ünvanlanmış suallara verdiyi səviyyəsiz cavablardan belə nəticə çıxarmaq olar ki, onun bir çox məsələlərdən xəbəri yoxdur. Və o, özünü demokrat hesab edən bir siyasətçi kimi onun Xocalı ilə bağlı cavabı tam mənada özünü həmin rejimin parlaq nümayəndəsi kimi göstərdi". F.Sadıqov vurğulayıb ki, artıq dünya Xocalını bir soyqırım kimi tanıyır: "Bu məsələ fonunda Paşinyan saxta tarixə üz tutur, keçmişi yada salamağa çalışır. BBC-nin müxbiri də özlüyündə onun tutarsız cavablarına çox sərt reaksiya verdi. Çünki Paşinyan faktiki olaraq heç bir suala cavab verə bilmədi. Bu da o deməkdir ki, ya Paşinyanın psixi durumu stabil deyil, ya da ki, o, müvəqqəti olaraq təsadüfi bir ünsür kimi hakimiyyətə gəlib. Ona görə də, düşünürəm ki, siyasi arenada onun günləri uzun müddətli olmayacaq".

***Aysel Məmmədova***

# Radikal müxalifətin Paşinyansayağı təfəkkürü...

***Baxın, erməniyə “dayı” deyən müxalifət 26 ildən çoxdur ki, dəyişməyən təfəkkürlə “mitinq, mitinq” deyir, Paşinyan da hakimiyyətə gəldiyi gündən “pul dilənmək” öz savadsızlığını nümayiş etdirərək haqqı olmayan iddialarla sərsəm çıxışlar edir. Rus şair A.S.Puşkin yazırdı: “Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən...”. Belə bir atalar sözümüz də var: “üzrü günahından da betər”.***

Paşinyanın Azərbaycan torpaqlarına qarşı iddialı çıxışı, satqın müxaliftin də sözün həqiqi və məcazi mənasında düşmən dəyirmanına su tökənlərin “Vətən üçün pis olan, mənə faydalıdır” təfəkkürü ilə satqınlıqlarından əl çəkməmələri. Olmayan şərəf, ləyaqət, qeyrət Vətən, ölkə və nəhayət Azərbaycan amilindən xəbərsiz olan radikal müxalifətin qranta satılanları Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Arif Məmmədov, Vidadi İskəndərli və bu kimi erməni çörəyi yeyənlərin işğalçı, faşist, terrorçu Paşinyanı müdafiə edərək sosial şəbəkələrdə gecəli-gündüzlü xalq, Vətən adından danışmağa nə haqqları var?. Özü də hamısı hər cümlələrində olmayan vicdanlarına, namuslarına and içirlər.

Elə bu günlərdə sosial şəbəkələrdə Vidadi İskəndərli, Arif Məmmədov, Cəmil Həsənli, Əli Kərimli, Sevinc Osmanqızı, Qənimət Zahid... Azərbaycanın hərbi gücünün zəif olması ilə bağlı cəfəngiyyat fikir söyləyərək “Paşinyan orduya can qoyur” deməri ermənidən betər erməni olduqlarını bir daha göstərdi. Bu nə birinci dəfədir, nə də sonuncu. Çünki radikal müxalifətlə Ermənistanın baş nazirinin düşüncəsi eyni səviyyədədir. Ancaq bu satqınlar anlamırlar ki, bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın və dünyanın ən güclü orduları sırasındadır. Bir də Paşinyansayağı təfəkkürlü satqınlar bir həqiqəti də anlamır ki, ordunun gücü özü-özündən yaranmır. Bu, həm də ölkə iqtisadiyyatının, ölkə başçısının düşünülmüş siyasətinin nəticəsində yaranmış iqtisadiyyatının gücü ilə ölçülür. Və onu da anlamırlar ki, bu gün Azərbaycan iqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının təqribən 75 faizini təşkil edir. Hər il olduğu kimi Azərbaycanın müdafiə və milli təhlükəsizlik xərcləri üçün 3 milyard 853 milyon 600 min manat vəsait ayrılacaq. Bu da 2019-cu illə müqayisədə 20,9 faiz, yaxud 666 milyon manat çoxdur. Həmçinin, işğalçı ölkənin büdcə xərcləri Azərbaycanı müdafiə xərclərinə bərabər olduğu halda orduda hansı irəliləyişdən danışmaq olar?. Və bu gün Əli Kərimli, Cəmil Həsənli, Sevinc Osmanqızı, Vidadi İskəndərli və digər “Milli Şura”nın satqınlarının şüursuzca baş naziri təriflələri eyni təfəkkürə malik olduğunu göstərir.

Bu günlərdə yenə də satqınlar sülaləsinin rəhbəri Əli Kərimlinin sosial şəbəkələrdə Azərbaycanın Rusiya ilə münasibətlərin pozulmasına xidmət edən cəfəngiyat səsləndirib. Göründüyü kimi, bu bir daha Paşinyanla fikirlərinin, düşüncələrinin üs-üstə düşdüyünün göstəricisidir. Elə Ə.Kərimlinin layiq olduğu Paşinyan olmalıdır.

Necə deyərlər: “Taylı-tayını tapar”. Əli Kərimli ilə Paşinyanın heç bir fərqi yoxdur. Paşinyan da istəyir ki, Azərbaycan Ordusu zəif olsun, Azərbaycan ərazilərinin işğalı davam etsin, Əli Kərimli də. Lakin hamı bilir ki, Azərbaycan



Ermənstanla üz-üzə qalarsa, həmin güclü Azərbaycan Ordusu və rəşadətli əsgərlərimizin əzm və qəhrəmanlığı sayəsində qısa müddət ərzində, nəinki Dağlıq Qarabağı azad edər, eyni zamanda, İrəvanda da otura bilər. Ona görə də, hər ikisini istəyi ürəklərində qalacaq, necə ki, qalıb!

Çünki hər ikisi Şərə və İblisə xidmət edir. Cəmiyyət isə belə “həyat fəlsəfələrini” çoxdan görüb. Bu yerdə Tolstoyun dediyi bu sözləri xatırlatmaq yerinə düşür: “Vətənpərvərlik yaramazların son sığınacaq yerinə çox tez-tez çevrilir”. Və bu marginallar unudurlar ki, antiazərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcklər. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Erməniçilik sevdası olan bu kəslər bu gün erməni deyilən bir bici, nəsli-kökü bilinməzi azərbaycanlı deyilən bir qeyrətlidən daha artıq tutmaqla, əslində, nə qədər mənəviyyatsız olduqlarını göstərirlər.

### Mənəviyyatı, şərəfi, ləyaqəti olmayandan başqa heç nə gözləməyə dəyməz

Yeri gəlmişkən, elə bu aralarda adını “Meydan tv” qoyub, siyasi madyanlıqları vasitəsilə çox sevdiyi, ayaqları altına düşdüyü, hətta filan-fulan yerlərini dəsmalladığı erməni dayılarına nökərçilik edən cinayətkarlardan hətta qohumları belə imtina etdikləri halda Sevinc Osmanqızından ailəsi, Rüstəm İbrahimbəyovdan imtina edən qardaşı Maqsud İbrahimbəyov, Qənimət Zahiddən imtina etmiş qardaşı Mirzə Sakit...bu kimi erməniyə dayı, əmi, hətta ata deyən axecepenin baş çaqqalı Əli Kərimli və onun şərəfsiz çar-çaqallarıdır. Və bu gün iki ildən çox müddətdə Paşinyan dəyişmədiyi kimi bu satqınları da 26 ildir ki, dəyişmək mümkün deyil. Dostoyevskinin dediyi kimi, “cinayəti törədib, onun cəzasından qaçmaq mümkündür. Amma o cinayətin qorxusundan çıxmaq əsla mümkün deyil”.

Və nəhayət, necə deyərlər, bu gün satqın radikal müxalifətlə Paşinyan eyni cinayətlərinin, xəyanətlərinin qorxusu ilə baş-başa qalıb. Çünki etdikləri cinayətlərin bədəli də böyükdür. Və bu mənəviyyatsız və bədbəxtlər bilməlidirlər ki, az qalıb, böyürə-böyürə bu dövlətin, bu xalqın ayağına gələcəklər. O zaman nə olacaq, zaman göstərəcək. Çünki bu cinayətkarların cəzası o qədər böyük və bağışlanılmazdır ki... Xalqın cəzası isə...Bunu isə zaman göstərəcək...

***RƏFİQƏ***

# “Beynəlxalq təşkilatlar təcavüzkarı cəzalandırmalıdır”



“Erməni tərəfinin, qondarma Dağlıq Qarabağ rejiminin, onun rəhbərlərinin, yaxud Ermənistanın hədə ritorikaları öz-özünə əmələ gəlməyib. Əvvəla, bu, ideoloji zəmindir. Yəni, bu hətta 150 il yaşı olan Daşnaqsütun ideolojiyasıdır ki, daim kiməsə hədələsinlər, terror eləsinlər və bu yolla nəyə isə nail olsunlar. Özlərinin havadarları olan Rusiyada belə onlar terror həyata keçiriblər. Qərdə də belə terror aktları təşkil ediblər.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli deyib.

Partiya sədrinin sözlərinə görə, hədə-qorxu bunların, ermənilərin ideoloji zəminidir ki, bunlar hədə-qorxu ilə nədənsə çəkindirməyin mümkünlüyünü düşünürlər.

“Ermənilər bir vaxt atəşkəs imzalanan zaman, 1994-cü ildə Murovdan Gəncəni vurmaq hədələri ilə çıxış edirdilər. Görünür bunlarda belə bir nostalji hislər yaranıb ki, belə axmaq ritorikadan istifadə edirlər. Digər tərəfdən də ən asas məsələ odur ki, ATƏT-in Minsk Qrupu daxil olmaqla beynəlxalq təşkilatlar daim bunların qudurğan hərəkətlərinə göz yumublar, heç vaxt bunları cəzalandırmayıblar, irad tutmayıblar və Azərbaycan tərəfi də sakitləşdiriblər ki, öz torpaqlarını azad eləməsin, elə Ermənistanla, işğalla da bir növ Azərbaycan barışsın. Bu missiyanı həyata keçirib. Bu turist diplomatiyasının bir məqsədi olub ki, o da Azərbaycanın öz torpaqlarını azad eləməsinə imkan verməməkdir. Bunun da kökündə o dayanır ki, SSRİ-nin dağılmasında ermənilər mühüm rol oynayıb, Qərb o zaman ermənilərdən istifadə edib və ona görə də Qərb Ermənistanı himayə eləməli olur. Bir növ özlərini ermənilərə borclu hesab edirlər ki, SSRİ-nin dağılmasında mühüm rol oynayıblar. Rusiya da təbii ki, özünün for-postu olduğu üçün müdafiə edir və ona görə də buna biganə yanaşıblar.

Ən əsas səbəb isə odur ki, hətta iddia elədikləri Dağlıq Qarabağ ətrafında 7 rayonu da zəbt ediblər bunlar. Qanunsuz yolla tutublar, geri qaytarmırlar və həyasızcasına bufer zona olduğunu və qaytarmayacaqlarını deyirlər. Bunların həyasızlıqlarının həddi-hüdudu yoxdur.

Əlbəttə ki, bizim ummağa haqqımız var. Beynəlxalq hüquq bizim tərəfimizdə olduğuna görə, beynəlxalq ictimaiyyət, aidiyyatlı təşkilatlar, aidiyyətli dövlətlər təcavüzkarı çəkindirməli, irad tutmalı, cəzalandırmalıdır. Amma mən hesab edirəm ki, bu az ehtimal olunandır. Çünki, dəfələrlə bu təkrar olunub. Erməniləri bir növ Qafqazda xristian təəssübkeşliyinin dayağı sayırlar və açıqdan-açığa onların bu təcavüzkar, terrorçı niyyətləri, özbaşınalıqlarının müdafiə edirlər. Ona görə mən yenə də deyirəm, biz doğru hərəkət edirik. Cənab Prezident hücum diplomatiyası yolunu seçib və eyni zamanda biz hərbimizi də gücləndiririk, çünki bu erməni güc görməsə qalan məsələlər bunlara təsir edən deyil. Əlbəttə ki, Türkiyə ilə birlikdə keçirdiyimiz təlimlər də bunlara, ermənilərə ciddi təsir elədi, qorxutdu bunları və ona görə də belə vəziyyətə düşdülər. Yəni, həm qorxurlar, həm də qorxudurlar.

Onsuz da ermənilər rüsvay olublar. Paşinyanın BBC-yə, Sakura verdiyi müsahibə də biabırçıdır. Ermənistanın baş naziri də biabır olub, Ermənistan dövləti də dünyada biabır olub və hamı da bunu bilir. Hamı onların haqsız olduqlarını bilir və yenə deyirəm ki, xalqımızın ayağa qalxmağı, Ali Baş Komandan ətrafında sıx birləşməsi, bunları çox qorxutdu, və əmin oldular ki, Azərbaycan heç zaman torpağının işğalı ilə barışmayacaq. Ona görə də bax beləcə təcavüzkar ritorikadan istifadə edirlər”, deyə Tahir Kərimli bildirib.

***İnam Hacıyev***

# “Müxalifət hələ də ötən əsrin 90-cı illərinin eyforiyasındadır”

Müxalifət düşərgəsində elə partiya sədrləri var ki, onlar bir növ yedək funksiyasını yerinə yetirirlər. Yəni sədr olmalarına baxmayaraq başqa partiyaların və liderlərin siyasi maraqlarını yerinə yetirməyə çalışırlar. Misal kimi Cəmil Həsənlinin “Osmanqızı” TV-yə açıqlamalarında özünü “Milli Şura”nın sədri kimi deyil, AXCP-nn sıravi üzvi, Əli Kərimlini isə lideri kimi təqdim etməsini göstərmək olar. Sual yaranır, C.Həsənlinin özünü aşağılaması və Ə.Kərimlini lideri olaraq özündən üstün formada təqdim etməsi nədən irəli gəlir?

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov “Səs” qəzetinə açıqlamasında bildirib ki, keçən dövr ərzində müxalifət adlanan bir qrup insanın müxtəlif vasitələrə əl ataraq siyasi qüvvə olmağa çalışmalarına baxmayaraq xalqın dəstəyini almağa nail ola bilmədilər: “Müxtəlif qurumlar yaratdılar, gah “narıncı” oldular, gah “gülə” çevrildilər, ilin “fəsillərinə çevrildilər” “vahid namizəd” axtardılar və s. digər əməllərə əl atsalar da xalq birmənalı şəkildə onları dəstəkləmədi. Xalqın adından danışsalar da seçkilərdə xalqa arxalana bilməyib “boykot” deyib siyasi mübarizə meydanına girməkdən çəkindilər. Özlərinin siyasi mübarizə strategiyasının yoxluğu bunları ancaq müxtəlif xarici dövlətlərdə baş verən hadisələr zamanı onlardan ideya alaraq hərəkət etməyə və yuxarıda qeyd etdiyim adlara və əməllərə söykənməyə vadar etdi. Bütün bunlar hər dəfə onların məğlubiyyəti və ifşası ilə nəticələndi. Yenə də son vaxtlar dünyada cəryan edən bəzi hadisələrdən ruhlanıb nəsə etməyə cəhd göstərirlər. Xüsusilə də sosial şəbəkələrdə daha aktiv görsənir, müasir komunikasiya texnologiyalarının nailliyətlərindən bəhrələnməyə çalışırlar. Son vaxtlar yenə bunlarda vahid lider xəstəliyi baş qaldırıb. Bunu xalqa sırımaqdan ötrü bir-birinə tərif deyərək lidr obrazı yaratmağa çalışırlar. Unudurlar ki, özləri aralarında kimisə lider kimi təqdim edə bilərlər, amma xalqa bunu heç cür qəbul etdirə bilməzlər”.



A.Xəlilov bildirdi ki, xalq dağıdıcı müxalif ünsürləri yaxşı tanıyır və nəyə qadir olduqlarını yaxşı bilir: “Ona görə də son vaxtlar “Milli Şura”nın rəhbərliyində olanların Əli Kərimlini lider kimi təqdim etməsi və özlərini sıravi göstərməsi bunların növbəti oyunlarından xəbər verir. Ancaq mahiyyət etibarı ilə heç nə dəyişmir ən azı təfəkkürlərində. Toplananların yerini dəyişməklə cəm dəyişmir. Xalq da bunu dərk edir və bunların nə etməsindən asılı olmayaraq dəstəyini ifadə etmir. Çünki xalq ötən əsrin 90-cı illərin acı tarixini unutmayıb. Bunların da elə 90-cı illərin təffəkründə və o dövrün eyforiyası ilə yaşadıqlarını bilirlər. Dünya inkişaf edir sənayedə yeni texnologiyalar yarandığı kimi, siyasətdə də yeniliklər hər gün demək olar ki, inkişaf edir. Kimsə demir ki, Azərbaycanda müxalifət olmasın, olsun amma söyüş və təhqirlə yox. Siyasi mübarizənin normal detallarına uyğun, dünyada qəbul edilən şərtlərlə mübarizə apara bilən müxalifət olsun. Yeniliyə, inkişafa söyənən müxalifət olsun. Liderini süni surətdə öz təriflər ilə seçməyi yox, xalqın qəbul etməsinə çalışsın. Bu gün məhz xalqın qəbul etdiyi lideri var. Xalq Prezident İlham Əliyevə güvənir və Onun siyasətini dəstəkləyir”.

***Gülyana***

# Müasir milli ailə dəyərlərinin problemləri

***Çağdaş dünyamızda gedən proseslər, qloballaşma, texnologiyanın inkişafı, xalqların inteqrasiyası, internet və virtuallaşma kimi yeni düşüncə-informasiya modellərinin zərbələri Azərbaycan ailəsindən də yan keçməyib. Bu inkişaf bir tərəfdən müsbət yeniliklər gətirsə də, digər tərəfdən milli-mənəvi dəyərlərin aşınmasına, Azərbaycan ailə institutunun deformasiyaya uğramasına aparıb çıxarır. Milli ailə modeli hər zaman Azərbaycanda müqəddəs ocaq, kiçik dövlət hesab olunub.***

Bəs günümüzdə bu sahədə durum necədir? Azərbaycan ailəsində yaranan problemlər doğrudanmı dünyada gedən inkişafdan, dəyişən zamandan qaynaqlanır? Yeni texnologiyalar vasitəsilə tanış olub ailə qurmaq lazımlı və uğurludurmu? Bu bölmədə mənəviyyatımızın əsas problemlərindən danışacaq, yazarlarımızı, düşüncə adamlarımızı bu milli məsələ ətrafında müzakirələrə dəvət edəcəyik.

Günel Əliyeva yazır ki, ailə quran gənclər bəzən sadəcə evlənmək məqsədi ilə ailə qururlar. Bu da təbii ki, sonradan mənfi nəticələrə səbəb ola bilir. Bizim ailə mentalitetimizə əsasən müəyyən yaşa qədər ailə qurmalıdırlar.Əks təqdirdə onlar evdə qalmış sayılır.Təbii ki, bütün bunlarında təsiri var. Və nəticə olaraq ailədə adi bir çətinlik yaranan kimi problemlərdə yaranmağa başlayır.

Ənənəvi ailə modeli dedikdə, keçmişdə qurulan ailələri misal göstərərdim. Analarımız-atalarımız həmişə öz ailələrinin nə qədər möhkəm olduğunu, adi problemləri böyütmədiklərini xatırladırlar. Əslində biz baxdığımızda bunun doğru olduğunu görə bilərik. Valideynlərimiz bizə də adi problemləri böyütməməyimizi, ailəmizə sahib çıxmağımızı istəyirlər. Əslində biz nə qədər istəsəkdə bu alınmır. Bunun tək bir səbəbi var: Keçmişdə insanların gözləntiləri bu qədər deyildi. Amma yaşadığımız müasir dövrün gözləntiləri də çox olur. İstəklərimiz çox olduqca gözləntilərimiz də çox olur. Və adi bir problemdən başlayaraq yeni problemlər yarana bilir.

Bugünkü dövrdə ailələrin dağılmasına müxtəlif problemlər səbəb ola bilir. Ən əsas təsir isə kənar amillərin yaratdığı təsir olur. Bunlar da əsasən valideynlər olur. Bir evdə yaşamaq, yeni şəraitə adaptasiya olmaq hər kəs üçün eyni olmur. Hər insan eyni şəkildə adaptasiya olunmur. Bu zaman digər tərəf də qarşı tərəfin adaptasiya olunmağına şərait yaradılmalıdır. Ən əsası tərəflər arasında olan problemlərə valideynlər qarışmasa daha yaxşı olar, hətta kişi və ya qadın kömək üçün valideynlərinə müraciət etsələr belə, valideynlər onların məsələsinə qarışmamalıdırlar. Çünki hər valideyn öz övladının tutduğu mövqedən məsələyə yanaşmağa çalışsa bu zaman problem daha da böyüyəcək. Onun üçün insanlar problemlərini öz aralarında ünsiyyət quraraq, bir-birini dinləyərək həll etsələr problem o qədər də böyüməz. Necə deyərlər: iki tərəf arasında olan münasibətə üçüncü tərəf qarışmamalıdır.

Ailə hər insanın zənginliyidir. Ailəni qurmaq deyil, onu qorumaq gərəkir. Ailə iki nəfər arasında olan sevgi, hörmət, düzgünlük əsasında qurulmalıdır. Necə gəldi qurulan ailələrin sonu belə olmur. Ailə sözünün deyil, ailə yükünün ağırlığını çəkə bilmək lazımdır. Ailə qurarkən gəncləri məcbur etməməliyik. Hər kəs müəyyən yaşa gəldikdə ailə qurmaq istəyir. Bu zaman onlar valideynlərinin məsləhətinə qulaq asaraq və ya öz seçdikləri biri ilə ailə həyatı qura bilməlidir.

Dövr müasir dövrdür. Mən psixoloq olaraq düşünürəm ki, ailə qurmamışdan əvvəl cütlüklərlə psixoloq arasında konsultasiyalar aparılsa gözəl olar. Ən azından 1-2 konsultasiya. Məsləhət hər zaman gözəldir. Təbii ki, ailə qurmamışdan əvvəl valideynlərimiz kifayət qədər məsləhət verməyə çalışır. Amma psixoloqla da görüş yaxşı olardı. Kişi və qadının gələcək arzularını, istəklərini deməsi, psixoloqun onlara məsləhət verərək, sonda seçimi onların öhdəsinə buraxması gözəl olardı.

Ailəmizə sevərək sahib çıxmalıyıq. Sevgi hər şeyin başlanğıcıdır. Ailənin olması vacibdir. Ailə sevincləri, üzüntüləri ilə gözəldir. Ailənin özəyi möhkəm qurularsa və qorunularsa biz bu zaman xoşbəxt olan ailədən söz aça bilərik. Və sonda xoşbəxt ailə mənim üçün:

1) Bir-birinə sevgi və hörmətlə yanaşmalı;

2) Biri-birinə inanmalı və güvənməli;

3) Biri-birinə verdikləri sözü unutmamalı

Cəmilə Çiçəyin fikrincə, qlobal bir dünyada yaşadığımızdan artıq Azərbaycan ailəsi məhfumu deyiləndə, yalnız Şimali Azərbaycanda yaşayan, 10 milyon insanı əhatə edən ailə institutları deyil, eyni zamanda dünyanın müxtəlif yerlərinə səpələnmiş 50 milyona yaxın soydaşımız, həmçinin qarışıq ailə tipləri nəzərdə tutulur. Son 10 ilin araşdırmaları göstərir ki, 130-140 oğlanla müqayisədə 100 qız uşağı doğulur. Deməli, 10-15 ilin statistikasının nəticələri üst-üstə gələndə bəlli olur ki, biz yaxın gələcəkdə oğlan uşaqlarımızı evləndirməyə

qız tapmayacağıq. Ona görə də biz yaxın gələcəkdə qlobal ailə tipini Azərbaycan ailəsi ilə müqayisə etməyə, yaxud da Azərbaycan ailəsinin yeni bir tipi haqqında danışmağa məcbur olacağıq.

Klassik Azərbaycan ailəsi və onun dəyərləri, o dəyərlərin müasir dövrdə necə olması barədə sosioloqlar, siyasətçilər, kulturoloq və filosoflar arasında mübahisələr gedir.

Əfsuslar olsun ki, Azərbaycanda bu mübahisələr radio və internet saytlarında aparılır. Daha ciddi konfranslarda və alimlərin əhatəsində bu mübahisələr getmir. Yaxud gedirsə də, orada iştirakçılar çox az olur. Baxmayaraq ki, əslində, bu, müasir dövrün ən böyük problemlərindən birinə çevrilib.

Rövşən Əvəzoğlu isə yazır ki, ailə-nigah və ya qan qohumluğuna əsaslanan, məişət ümumiliyi və qarşılıqlı mənəvi məsuliyyətlə bağlı olan kiçik sosial birlikdir. O, hər bir cəmiyyətin sosial strukturunun mühüm komponenti olub, çoxlu sosial funksiyalar yerinə yetirməklə həmin cəmiyyətin inkişafında mühüm rol oynayır. Nigah ailənin hüquqi əsasıdır. O, qadınla kişi arasında rəsmi qaydada bağlanılan müqavilədir.

İnsan ailədə dünyaya gəlir, onun vasitəsilə uşaqların ilkin sosiallaşması və tərbiyə edilməsi başlayır. Həmiçinin böyüyə hörmət və qayğı göstərmək vəzifəsi ailədə reallaşır. Ailənin əsası cəmiyyət tərəfindən bu və ya digər formada müəyyən edilmiş kişi ilə qadın arasında nigah ittifaqıdır. Nigah kişi ilə qadın arasında, valideynlərlə uşaqlar arasında münasibətləri qəti müəyyənləşdirir, müəyyən normalara salır, bununla da ona sosial təsisat xarakteri verir. Ailəyə kiçik sosial qrup kimi də baxmaq olar.Ailənin mahiyyəti onun qurluşunda, formalarında, funksiyalarında və bir də ailə üzvlərinin ailədə rolunda ifadə olunur.

Ailə tərbiyəsi geniş imkanlara malikdir. O, ünsiyyət əmək və şəxsi nümunə, davranışın qiymətləndirilməsi, mükafatlandırma və cəzalandırma kimi təsir formalarından istifadə edir. Ailə ünsiyyəti uşaqların intellektual qabiliyyətinin stimullaşdırılmasında böyük rol oynayır.Sosioloji tədqiqat göstərir ki ailə tərbiyəsinin səmərəliliyi onun tərkibindən (bütöv və ya yarımçıq olmasından), mənəvi-psixoloji iqlimindən, sosial istiqamətindən, valideynlərin şəxsi nümunəsi və nüfuzundan, onların ümumi və pedoqoji mədəniyyətindən, uşaqlarla ünsiyyətin xarakterindən asılıdır.

Ailənin formalaşması və fəaliyyət göstərməsinə spesifik şərait (yaşayış yeri, sosial-sinfi və milli mənsubiyyət, maddi vəziyyət, ailə üzvlərinin təhsil, mədəni səviyyəsi, ailənin mənəvi və iqtisadi əsası) təsir göstərir.

Bu gün ailə bağlarının qopmasına səbəb olan faktorlar çoxdur. Fikir ayrılıqları, qərarsızlıqlar, birbirini başa düşməmək kimi problemlər ailə bağlarının qopmasına səbəb olur. Bu problemlər adi bir problem kimi görünsə də, əslində kiçik çatışmazlıqlar böyük problemlərə yol aça bilir. "Ailə kiçik bir dövlətdir" - boş yerə deyilmiş bir söz deyil. Təbii ki, ailədə problemlər olur və olmalıdır. Kişi və qadın problemlərini birlikdə həll edərək, bir-birini başa düşə bilməlidirlər. Hər kəs üçün müasir ailə modeli müxtəlif cür ola bilər: Mənim üçün müasir ailə modeli bir-birini başa düşməkdən keçir. Bir-birini başa düşmək üçün ünsiyyət qurulmalıdır. Ünsiyyət quraraq insanlar aralarındakı bütün problemləri həll edə bilərlər. Elə yaranan problemlərin əsası da ünsiyyət azlığının olmasından yaranır. Ailədə bir-birinə qarşılıqlı hörmət lazımdır. Bəzən deyirik sevgi əsasdır, bəzən isə hörmət əsasdır deyirik. Amma məncə insanlar bir-birini sevərək evlənir, sevgi daha sonra hörmətə çevrilir. Sevilmək gözəl hissdir, o cümlədən də sevmək.

Qadın və kişi münasibətlərində müxtəlif fərqlər ola bilər. Hər bir insanın xarakteri fərqlidir.Hər bir insanın düşüncə tərzi fərqlidir. Qadın və kişi öz aralarında olan problemi həll edərkən bir-birlərinə güzəştə gedə bilməyi bacarmalıdırlar. Bəzən ailədə olan 2 nəfərdən biri problem yaradırsa, digər bir nəfər həmin problemi böyütməməlidir. Xalq arasında deyilən deyimə əsasən biri od olarsa, digəri su olmalıdır. Qadın və kişi öz arasında olan problemi həll edərkən bir-birinə verdikləri sözü başa düşməlidir. Təbii ki, evliliyə qədər olan müddətdə insanlar bir-birini tanımalıdır.Bu dövr nişanlılıq dövrü adlansa da, əslində mən bu dövrü tanıma dövrü adlandırıram.Çünki cütlüklər bu dövrdə birbirlərinin xarakterik xüsusiyyətlərini öyrənirlər.Əgər bu dövrü düzgün dəyərləndirə bilmək vacibdir, çünki bu sonrakı dövrlər üçün əsas zəmin rolunu oynayır. Ona görə də bu müddət bir qədər uzun olmalıdır, amma verilən bu müddəti onlar dəyərləndirə bilərək, bir-birilərini yaxşı tanımağa çalışmalıdırlar ki, sonralar yarana biləcək adi problemlərdə "mən səni yaxşı tanımamışam", "sənin belə bir insan olduğunu bilmirdin", "belə olacağını bilsəydim səninlə ailə qurmazdım" kimi xoşagəlməz, problem yarada biləcək ifadələr XX əsrə və XXI əsrin əvvəllərinə nəzər salanda, şərti olaraq Azərbaycan ailələrini iki qrupa bölmək mümkündür.

Birincisi, daha çox əyalətdə yaşayanlar və Şərq ailə tipinə, milli mentalitetə tam uyğun ailə tipi. İkincisi isə, daha çox böyük şəhərlərdə, Bakıda və dünyanın müxtəlif ölkələrində yaşayan ailələr. Bunların arasında müəyyən fərqlər var və fərqlər get-gedə daha da kəskinləşməkdədir. Fərqlər ətrafında mübahisələr edib fikir söyləmək olar, amma fakt budur ki, biz hazırda bu iki ailə tipi ilə rastlaşırıq və hətta bunların özlərinin də indi müxtəlif problemləri var.

Məsələn, əvvəllər kişi və qadından ibarət ailə tipləri var idi. Və bu ailə tipinə bütün dünyadan fərqli Azərbaycanda daha çox rast gəlinirdi. Amma indi tək qadın və tək kişidən, yaxud qadın və uşaq, kişi və uşaqdan ibarət ailə tipi ilə rastlaşırıq. Yaxud vətəndaş nikahı ilə evlənmiş insanlardan ibarət ailə tipləri var.

**_Vahid Ömərov, f.f.d, dosent_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

19 avqust


## Son səhifə

## Keçmiş "Trabzonspor"lu "Fənərbaxça"da!



"Fənərbaxça" növbəti transferini tamamlayıb. İstanbul təmsilçisi "Trabzonspor"la müqaviləsi başa çatan Xose Sosanı rənglərinə bağlayıb. Argentinalı yarımmüdafiəçi "sarı-lacivərdli" klubla iki illik anlaşıb. Sosanın illik maaşı 1,5 milyon avro olacaq. O, "Fənərbaxça"dan 1,5 milyon avro imza pulu da alacaq. 35 yaşlı futbolçu ötən mövsüm keçirdiyi 42 oyunda 10 qol vurub, 12 məhsuldar ötürmə edib.

## Samuel Eto'o: "Barselona" demək, Messi deməkdir



***"Barselona"nın sabiq oyunçusu Samuel Eto'o Lionel Messinin Kataloniya klubundan ayrılacağı ilə bağlı yayılan iddialara münasibət bildirib. Qol.az "TyC Sport"a istinadən xəbər verir ki, o, argentinalı hücumçunun komandada qalmalı olduğunu deyib:***

"Messini öz övladım kimi sevirəm və onun üçün ən yaxşısını arzulayıram. "Barselona" demək, Messi deməkdir.O, "Barselona"dan ayrılmağa qərar versə, gərək, klub adını dəyişdirsin. Messinin karyerasını "Barselona" bitirməsi üçün mümkün olan hər şeyi etmək lazımdır. Ümid edirəm ki, rəhbərlik klubun yaxşılığı üçün qərarlar qəbul edəcək".

## Özbəkistan vətəndaşı piyada Həccə gedir



Özbəkistan vətəndaşı, Qaşqadərya vilayətinin sakini Cumanazar Xalmuradov piyada Həcc ziyarətinə yola düşüb. O, artıq ölkənin Qaraqalpaq vilayətinə çatıb. AZƏRTAC xəbər verir ki, Qaraqalpaqstanda C.Xalmuradovu vilayət sakinləri qarşılayıblar. Onun arzusunu nəzərə alan yerli əhali yurta (milli çadır) qurub, səyahətçini Qaraqalpaq milli yeməklərinə qonaq edib, xalq musiqisi səsləndirilib. Cumanazar Xalmuradov yerli jurnalistlərə müsahibəsində deyib ki, dekabr ayında Məkkədə olmağı planlaşdırır. Vurğulayıb ki, Məkkəyə piyada getmək çoxdankı arzusu olub və bu il arzusunu reallaşdırmaq niyyətindədir.

## Finlandiyanın Baş Nazirinə Koronavirus ŞOKU!



Finlandiyanın Baş Naziri Sanna Marin bildirib ki, onda respirator simptomlar yaranıb. Bununla əlaqədar, Baş Nazir evdə işləmək rejiminə keçməyi qərara alıb. AZƏRTAC Finlandiya KİV-lərinə istinadla xəbər verir ki, yüngül respirator simptomlar şiddətlənib. Buna görə də Finlandiyanın Baş Naziri koronavirus testindən keçməli və distant iş rejiminə qayıtmalıdır. Sanna Marin bildirib ki, avqustun 18-də Sosial Demokrat Partiyasının parlament qrupunun yay iclasında, habelə hökumətlə danışıqlarda onlayn rejimdə iştirak edəcək.

Koronavirus pandemiyası dövründə artıq dördüncü dəfədir ki, koronavirusa tutulma şübhəsi Finlandiyanın Baş Nazirinin iş qrafikini pozur.

Aprel ayında Baş Nazirin iqamətgahındakı bir əməkdaş koronavirusa yoluxmuş insanla kontaktda olub. Bundan sonra Sanna Marin özünütəcrid rejiminə keçib və koronavirus testinə məruz qalıb, lakin testin nəticəsi neqativ olub. Mayın əvvəlində Baş Nazir də daxil olmaqla Finlandiyanın bütün nazirləri distans iş rejiminə keçiblər. Bu, onunla bağlı idi ki, Sosial məsələlər və səhiyyə naziri Ayno-Kaysa Pekonen və Məşğulluq naziri Tuula Xaataynen hökumət ilə danışıqlar dövründə virusa yoluxmaqda şübhə doğururdu. Elə həmin ayda Sanna Marin səhhətinin vəziyyəti ilə əlaqədar bir həftə məzuniyyət götürüb. Bu müddətdə onda qrip əlamətləri yarandığına görə, yenidən koronavirus testindən keçməli olub.

## Soyğunçuluq etdiyinə görə tutuldu, iki evdən oğurluq etməsi də üzə çıxdı



Paytaxtın Xəzər və Binəqədi rayonlarında soyğunçuluq və oğurluqla məşğul olan şəxslər yaxalanıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, soyğunçuluq etdiyinə görə tutulmuş A.Hüseynovla bağlı Xəzər Rayon Polis İdarəsinin 2-ci polis şöbəsinin əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun rayon ərazisində iki evdən 1675 manat dəyərində təmir-tikinti alətləri və məişət əşyaları oğurlaması da məlum olub.

Binəqədi Rayon Polis İdarəsinin 6-cı polis bölməsinin əməkdaşları isə oğurluq etdiyinə görə tutulmuş S.Cəfərov və S.Bəyalıyevlə bağlı apardıqları əməliyyat tədbirləri ilə onların daha iki evdən ümumilikdə 6700 manat, 700 ABŞ dolları və 550 manat dəyərində qızıl-zinət əşyaları oğurlamalarını da müəyyənləşdiriblər.

## Alimlərdən koronavirusla bağlı yeni açıqlama

Alimlər koronavirus infeksiyasına yoluxma riski ilə Rh faktoru arasında əlaqəni aşkarlayıb. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, Barselona Universitetinin və Braziliyanın Kampinas Universitetinin mütəxəssisləri 126 ölkədə koronavirusun yayılma göstəricilərini analiz ediblər. Məlum olub ki, mənfi Rh faktorlu insanların əksəriyyət təşkil etdiyi ölkələrdə COVID-19 infeksiyasına yoluxma halları daha çoxdur. Əsasən Avstraliya, Avstriya, Braziliya, Yeni Zelandiya, İspaniya, Böyük Britaniya, İsveçrə və ABŞ-da koronavirus çox sürətlə yayılıb. Tədqiqatçılar bunu mənfi qan qruplarına malik insanların koronavirusa yoluxma riskinin daha çox olması ilə izah edirlər. Xəstəlik riskinin yüksək olması Rh faktoru və orqanizmin immun sistemi arasında əlaqənin nəticəsi ola bilər. Çexiyanın Karlova Universitetinin alimləri belə insanların allergik, həzm, ürək, immun və nevroloji problemlərdən daha çox şikayətçi olduqlarını müəyyən ediblər. Həmçinin mənfi Rh faktorlu insanlarda ürək-damar, respirator və digər xəstəliklərin inkişaf riski daha çox müşahidə edilir ki, bu da ağırlaşmalara səbəb ola bilər.

## Yuxu İmmun sistemi gücləndirmək üçün əla vasitədir

Koronavirus pandemiyasına, bütövlükdə yoluxucu xəstəliklərə qarşı qorunmaq, orqanizmin immun sistemini gücləndirmək üçün sadə vasitələrdən yararlanmaq olar.

"Sleep" xəbər verir ki, ABŞ Pensilvania Universiteti immunologiya fakültəsinin direktoruCon Ueriimmun sistemigüclü saxlayan ən mühüm amillər arasında yuxu olduğunu qeyd edib. Belə ki, gündə altı saat və daha az yatan insanlar virusa yoluxduqları təqdirdə yeddi saat və daha çox yatanlara nisbətən dördqat çox soyuqdəymə xəstəliyinə tutulurlar. Həmçinin maqniumun böyük miqdarda olduğu qidaları qəbul etməyin zəruriliyi də qeyd edilir. Belə ki, beyini və bütün orqanizmi rahatladan, yaxşı və sakit yuxuya dəstək verən maqnium həmçinin psixoloji sarsıntıların, həyacanın öhdəsindən gəlmək üçün səmərəli vasitədir.

"İmmun sistemibirdən-birə gücləndirmək olmaz. Xəstələnəndən sonra vitamin qəbul etmək mənasızdır. Lakin gündəlik həyat tərzinizə müəyyən dəyişikliklər edərək onlara müntəzəm əməl etsəniz, xəstəliklərin artdığı payız mövsümü ərəfəsindəimmun sisteminizə kömək etmiş olarsınız", - ekspert vurğulayıb.

## ELAN

Naxçıvan Muxtar Respublikası Ordubad şəhəri. M.Sidqi küçəsi, ev 3 - də yaşayan Samir Eldar oğlu Sadıqovun adına Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi tərəfindən verilmiş qeydiyyat nömrəsi FHN/38-00540 təhlükəli yüklərin nəqliyyat vasitəsi ilə daşınması (3-cü sinif təhlükəli yüklər) lisenziyası itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**